Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 107 (7834) BAZAR, 13 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# 7,1 milyon manatlıq layihə, 9 müəssisə



## Tezliklə fəaliyyətə başlayacaq Masallı Sənaye Məhəlləsi Prezident İlham Əliyevin modern sənayeləşmə siyasətinin növbəti mühüm töhfəsidir

**Bakı-Astara magistral yolu, Masallı rayonunun Dadva yaşayış massivi. On ay öncə bu magistral yoldan təxminən 150 metr aralıda ayrılmış 10 hektar torpaq sahəsində böyük tikinti-quruculuq işləri gedirdi. Bu gün isə ərazidə tam fərqli mənzərə var. Əgər 2017-ci ilin iyul ayınadək bura sadəcə boş torpaq sahəsindən ibarət ərazi idisə, indi burada böyük bir möhtəşəm kompleks inşa edilib. Bu, respublikanın cənub bölgəsinin sosial-iqtisadi inkişafına mühüm töhfəsini verəcək Masallı Sənaye Məhəlləsidir.**




### Səkkiz ayda dəyişən mənzərə

Görünən mənzərə onu deməyə əsas verir ki, tezliklə ölkəmizdə daha bir sənaye məhəlləsi fəaliyyətə başlayacaq. Prezident İlham Əliyevin 2016-cı il 13 iyul tarixli sərəncamı ilə yaradılan Masallı Sənaye Məhəlləsi artıq tam hazırdır. Ötən ilin iyul ayında tikintisinə başlanılan məhəllədə bütün işlər yekunlaşıb və hazırda rezidentlərin müraciətlərinə baxılır. Tezliklə sənaye məhəlləsinin açılış mərasimi olacaq.

Açılış mərasimindən öncə görülən işlərlə tanış olmaq üçün Masallı rayonuna üz tutduq. Əvvəlcə onu deyək ki, ötən ilin sentyabr ayında burada aparılan tikinti-quruculuq işlərinin gedişatı ilə maraqlanmışdıq. Həmin zaman tikintinin bu ilin mart ayında başa çatacağı bildirilmişdi. Səkkiz aydan sonra əraziyə növbəti səfərimiz zamanı gördüyümüz mənzərə tamamən fərqli idi.

### Cənub bölgəsində sənayenin inkişafına böyük təkan verilir

Öncə onu vurğulayaq ki, 2014-cü ilin oktyabr ayından etibarən sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi dövlət başçısı tərəfindən İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə həvalə edilib. Adıçəkilən qurum Neftçala Sənaye Məhəlləsindən sonra respublikanın cənub bölgəsində sənayenin inkişafına böyük təkan verəcək ikinci bir məhəllənin tikintisini yekunlaşdırıb. Yəni bu istiqamətdə verilən tapşırıqlar yerinə yetirilib.

Məhəllənin tikintisi üçün 10 hektar torpaq sahəsi ayrılsa da, hələlik birinci mərhələdə tikinti-quruculuq işləri 3,54 hektar ərazidə aparılıb. Yəni rezidentlərin sayı artarsa, burada yeni obyektlərin inşa edilməsi üçün kifayət qədər ərazi mövcuddur.

Sənaye məhəlləsinin ərazisində 3 çoxfunksiyalı istehsalat korpusu (6200 $m^2$), ikimərtəbəli inzibati bina (1255 $m^2$ ), texniki bina və köməkçi sahələr (738 $m^2$), zəruri infrastruktur (5 Mvt gücündə elektrik, $400^3$ saat qaz, $430^3$ saat su, nəqliyyat, internet və rabitə sistemi) quraşdırılıb.

Bütün bu işlər ötən ilin iyul ayından bu ilin mart ayına kimi, yəni səkkiz ay müddətində tam başa çatdırılıb. Tikintiyə 200 nəfər işçi cəlb edilib.

### Poçt, bank və mühasibatlıq bir mərkəzdə

Hər bir istehsalat sahəsi 6 boksdan ibarətdir. Sənaye məhəlləsində inşa edilmiş inzibati binada sahibkarlar üçün hüquq məsləhətxanası, istehsal edilən məhsulların nümayiş etdirilməsi üçün sərgi salonu, mühasibatlıq, poçt xidməti, bank, ilkin tibbi yardım məntəqəsi, yeməkxana və supermarket də mövcuddur.

Yeni məhəllədə fəaliyyət göstərəcək sahibkarlara hər cür imkanlar yaradılacaq. İnvestorlar vaxt itkisi olmadan öz məhsullarının satışını həyata keçirmək üçün bu xidmətlərdən yararlanacaqlar. İstehsal olunan məhsullarla bağlı bütün sənədləşmə prosesi məhəllədə həll olunacaq.

### İlkin olaraq burada 9 müəssisə fəaliyyətə başlayacaq

Artıq məhəllədə fəaliyyət göstərmək üçün İqtisadiyyat Nazirliyinə sahibkarlar tərəfindən ümumi dəyəri 33,5 milyon manatdan çox olan 33 layihə təqdim olunub. Masallı Sənaye Məhəlləsində həyata keçiriləcək layihələr əsasən 4 mebel istehsalı, digərləri avtomobil təmiri, alüminium və plastik qapı-pəncərə, metal məmulatlar, tikinti materialları, kabel istehsalı və dulusçuluq məmulatları, elektrik dirəklərinin təmiri, park və bulvarlar üçün skamyaların hazırlanması və müxtəlif növ tikinti materiallarının istehsalı sahələrini əhatə edəcək.

Ardı 5-ci səh.

## "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106; 2001, № 12, maddə 731; 2002, № 1, maddə 4; 2004, № 8, maddə 606, № 9, maddə 666; 2007, № 3, maddə 206, № 6, maddələr 560, 598, № 11, maddə 1078; 2008, № 8, maddə 699, № 11, maddə 960; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2013, № 12, maddə 1497; Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1032-VQD nömrəli Qanunu) 21-ci maddəsinin üçüncü hissəsində "2250" rəqəmləri "2475" rəqəmləri ilə əvəz edilsin.

Maddə 2. Bu qanunun 1-ci maddəsində nəzərdə tutulmuş dəyişiklik 2018-ci il mayın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

## "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1121-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1121-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 may 2018-ci il*

## "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 959 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 959 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 564; 2014, № 5, maddə 477; 2015, № 2, maddə 131; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 836) 1-ci hissəsinin ikinci abzasında "İqtisadiyyat Nazirliyi" sözləri, üçüncü abzasında "Səhiyyə Nazirliyi" sözləri "Qida Təhlükəsizliyi Agentliyi" sözləri ilə əvəz edilsin.

2. Bu fərman 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 may 2018-ci il*

# Azərbaycanın uzunmüddətli inkişafına xidmət edən qaz kəməri

## *Prezident İlham ƏLİYEV:* "Cənub qaz dəhlizi" reallıqdır. Bu reallığı biz yaratmışıq"

**Bu il fevral ayının 15-də Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı keçirildi. Nazirlər Kabinetinin birinci rübün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev "Cənub qaz dəhlizi" layihəsindən bəhs edərkən bu tədbirin əhəmiyyətini də vurğulamışdır. Belə ki, Məşvərət Şurası aparılan müzakirələr nəticəsində bəyanat qəbul etmiş və bu sənəddə Azərbaycanın sözügedən layihədə liderliyi bir daha qeyd olunmuşdur.**




"Cənub qaz dəhlizi"nin yaradılması ilə bağlı önəmli addımlar atılır. Layihənin dörd seqmentindən üçü artıq start xəttindədir. Yaxın aylarda "Cənub qaz dəhlizi"nin əsas ehtiyat mənbəyi olan "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasilata başlanacaq. İlk qazın əldə edilməsi üçün, demək olar ki, bütün işlər görülüb. "Şahdəniz-2"nin ərazisində bir-birinə körpü vasitəsilə birləşdirilən iki platforma quraşdırılıb. Qazı sahilə ötürən sualtı xətlər çəkilib və qəbul etmək üçün Səngəçal terminalında yeni qurğular tikilib.

"Şahdəniz" qazını Azərbaycanın və Gürcüstanın ərazisi ilə nəql edən Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsi layihəsi də yekunlaşmaqdadır. Hacıqabulun Muğan qəsəbəsindən başlayaraq CQBK-nın Azərbaycan hissəsi ilə yanaşı yeni kəmər çəkilib. Azərbaycanda və Gürcüstanda bir sıra yerüstü obyektlər tikilib, qurğular quraşdırılıb.

Gürcüstan-Türkiyə sərhədində CQBK-ya qovuşan TANAP (Transanadolu Qaz Boru Kəməri) Azərbaycan qazının yolunu davam etdirəcək. Yaxın aylarda istifadəyə veriləcək bu kəmər qazı Türkiyənin ərazisində təxminən 1900 kilometr məsafə boyu daşıyacaq.

TAP (Transadriatik Qaz Boru Kəməri) Yunanıstandan, Albaniyadan və Adriatik dənizinin altından keçməklə qazı İtaliya torpağına nəql edəcək. Bu kəmərin tikintisi də rəvan gedir. Prezident İlham Əliyevin dediyi kimi: "Cənub qaz dəhlizi" artıq reallıqdır. Bu reallığı biz yaratmışıq və bu, ölkəmizin uzunmüddətli inkişafı üçün xüsusi əhəmiyyətə malik olan layihədir".

"Cənub qaz dəhlizi"nin təşəbbüsçüsü və lideri Azərbaycandır. Bunu təsdiq edən amillərdən biri odur ki, layihənin Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısı artıq dördüncü dəfə Bakıda keçirildi.

Xatırladaq ki, Məşvərət Şurasının yaradılması təklifi ilə də 2015-ci ildə Azərbaycan çıxış edib. Çünki layihənin gerçəkləşməsi üçün bütün səylərin əlaqələndirilməsinə böyük ehtiyac yaranmışdı.

Ardı 5-ci səh.



# Aqrar sektorun sənayeləşməsi dövrün tələbidir

**Kənd təsərrüfatında ənənəvi sahələrin dirçəldilməsi aqrar sektorun dinamik inkişafında mühüm rol oynayır. Məsələn, son dövrlər pambıqçılığın, tütünçülüyün, sitrus meyvəçiliyinin, üzümçülüyün, çayçılığın, çəltikçiliyin dövlət dəstəyi hesabına inkişafı bu sahədə məhsul istehsalının artımına və ölkənin ixrac potensialının çoxalmasına imkan yaradıb.**

Bunun nəticəsidir ki, cari ilin yanvar-fevral aylarında qeyri-neft məhsullarının ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 37,3 faiz artaraq 241,7 milyon dollara çatıb. Sözsüz ki, ixrac olunan qeyri-neft məhsullarında aqrar sektorun payı da yüksəkdir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ənənəvi sahələrin dirçəldilməsi barədə demişdir: "Kənd təsərrüfatı ilə bağlı artım 4,2 faizdir, yaxşı göstəricidir, xüsusilə bitkiçilikdə. Bunun böyük hissəsi pambığın istehsalı ilə bağlıdır... Biz ənənəvi texniki məhsulların inkişafı ilə bağlı çox ciddi addımlar atmışıq..."

Azərbaycanda aqrar sektor üzrə islahatlar kompleks şəkildə aparılır. Yeni kənd təsərrüfatı məhsullarının istehsalı, emal prosesləri və son məhsula çevrilməsi planlı şəkildə həyata keçirilir. Məsələn, pambıq və baramanın Mingəçevir Sənaye Parkında və Şəki İpək Kombinatında yüksək səviyyədə emal edilərək son məhsula çevrilməsi üçün konkret tədbirlər görülür. Bu da həmin məhsullardan daha çox gəlir əldə etməyə, daxili tələbatı ödəməyə və ixrac etməyə hesablanıb. Qeyd edək ki, təkcə pambıqçılığa verilən dövlət dəstəyi sayəsində ötən il 207 min ton pambıq tədarük edilmişdir. Müqayisə üçün bildirək ki, 2015-ci ildə bu rəqəm cəmi 35 min ton olmuşdu. Göründüyü kimi, fərq dəfələrlədir.

Ümumiyyətlə, kənd təsərrüfatında sənayeləşmədən geniş istifadə dövrün tələbidir. Dünya təcrübəsi də göstərir ki, aqrar sektorda sənayeləşmə olmadan inkişaf mümkün deyil. Odur ki, bu sahədə yeni texnika və texnologiyalar tətbiq edilir və o, məhsuldarlığın artmasına, məhsulların emalına geniş imkanlar açır. Digər tərəfdən, məhsul istehsalçıları ilə emalçılar arasında əlaqə yaranır. İstehsalçı məhsulun alıcısının olacağını, emalçı nə qədər xammaldan istifadə edəcəyini öncədən bilir. Bu qarşılıqlı əlaqə və anlaşma hər iki tərəf üçün sərfəlidir və istehsalı stimullaşdırır.

Aqropark da müasir texnika və texnologiyalardan istifadə edilən aqrar müəssisədir. Artıq ölkəmizdə də bu təcrübədən geniş istifadə olunur. Hazırda Azərbaycanda 45 aqroparkın yaradılması prosesi gedir. Həmin aqroparkların 28-i bitkiçilik, 17-si heyvandarlıq kompleksidir. Bu müəssisələrin fəaliyyətə başlaması həm ölkəmizin ərzaq təhlükəsizliyini təmin edəcək, həm də ixrac imkanlarını genişləndirəcək.

Ardı 5-ci səh.

## “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311; № 10, maddə 1771, № 11, maddə 1962, № 12, I kitab, maddələr 2242, 2269; Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1001-VQD nömrəli və 23 fevral tarixli 1018-VQD nömrəli qanunları) 2-ci maddəsinə “Ədliyyə sahəsində fərqlənməyə görə” medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” yubiley medalı;”

**Maddə 2.** “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin *(əlavə olunur).*

**Maddə 3.** “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin *(əlavə olunur).*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir

## “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə öz vəzifələrini nümunəvi yerinə yetirən, qüsursuz fəaliyyəti ilə fərqlənən ədliyyə orqanları əməkdaşları, hakimlər, ədliyyə və məhkəmə sisteminin inkişafına töhfə vermiş və ədliyyə orqanları ilə səmərəli əməkdaşlıq edən digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanı təltif edir.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda “Ədliyyə sahəsində fərqlənməyə görə” Azərbaycan Respublikasının medalından sonra taxılır.

Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir

## “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 37 mm olan, hər tərəfə şüalar saçan səkkizguşəli ulduz kompozisiyalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

Medalın ön tərəfində diametri 25 mm olan halqa ilə əhatələnmiş gümüşü dairə yerləşir. Dairənin diametri 18 mm-dir və üzərində aypara, səkkizguşəli ulduz, kitab, qılınc, tərəzi atributları müvafiq icra hakimiyyəti orqanının rəsmi embleminə müvafiq şəkildə təsvir edilmişdir. Dairəni halqa ilə birləşdirən hissə tünd göy mina ilə örtülmüş, yuxarı qövsü boyunca solda “AZƏRBAYCAN”, sağda “ƏDLİYYƏSİ” sözləri, aşağı qövsü boyunca dəfnə budaqları, budaqların haçalandığı mərkəz hissəsində isə qabarıq gümüşü lent və onun üzərində “100” rəqəmi həkk edilmişdir. Ulduzun guşələri tünd göy mina ilə örtülmüş, kənarları qabarıq qızılı xətlə haşiyələnmiş və ucları arasındakı məsafə 12 mm olmaqla, hər biri digərindən beş şüa ilə ayrılmışdır. Halqanın və dairənin konturları, bütün yazılar, dəfnə budaqları, atributlar, şüalar relyefli olmaqla qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfinin səthi hamardır, orta hissəsində “AZƏRBAYCAN ƏDLİYYƏSİNİN 100 İLLİYİ 1918-2018” sözləri, aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 27 mm x 48 mm ölçülü qızılı rəngli metal lövhəyə ilgək və iki halqa vasitəsilə birləşdirilir. Lövhəyə üzərində kənarlardan mərkəzə doğru ardıcıl olaraq 2 mm enində yaşıl, 1 mm enində tünd göy, 6 mm enində mavi rəngli şaquli zolaqlar, mərkəzdə isə 9 mm enində tünd göy rəngli şaquli zolaq təsvir edilmiş xara lent çəkilmişdir. Xara lentin yuxarı hissəsinə 27 mm x 6 mm ölçülü, aşağı hissəsinə eni kənarlarda 6 mm, mərkəzdə 11 mm olan qızılı rəngli təbəqə bərkidilmiş, təbəqənin üzərinə palıd yarpaqları, onlardan aşağıda düz xətt və “1918-2018” rəqəmləri relyefli həkk edilmişdir.




4.2. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1072-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1072-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsviri”nin 2-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanı” dedikdə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

3. “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə nazirinə verilsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 913-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 22; 2005, № 10, maddə 910; 2008, № 11, maddə 970; 2009, № 2, maddə 59, № 7, maddə 532, № 12, maddə 983; 2010, № 11, maddə 964; 2011, № 2, maddə 85, № 6, maddə 493; 2015, № 9, maddə 986) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə”nin 9.3-1-ci yarımbəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 969-VQD nömrəli, 2018-ci il 1 fevral tarixli 981-VQD, 984-VQD nömrəli, 13 fevral tarixli 1002-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 28.1-ci maddənin ikinci cümləsi çıxarılsın.
2. 43.1-ci maddədən “227-1,” rəqəmləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1067-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1067-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979; № 12, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 969-VQD nömrəli, 2018-ci il 1 fevral tarixli 981-VQD və 984-VQD nömrəli, 13 fevral tarixli 1002-VQD nömrəli, 6 mart tarixli 1035-VQD və 1038-VQD nömrəli qanunları) 43.1-ci maddəsinə “394-1,” rəqəmlərindən sonra “395.1 (həmin əməlin müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi hallarına münasibətdə),” sözləri və “395.1-1,” rəqəmlərindən sonra “395.2 (həmin əməlin müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi hallarına münasibətdə),” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1073-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1073-VQD nömrzli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrzli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1613, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 mart tarixli 1868 nömrəli, 7 mart tarixli 1878 nömrəli və 29 mart tarixli 1895 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bənddə “birinci halda” sözləri “birinci, ikinci, üçüncü hallarda” sözləri ilə əvəz edilsin;

3.2. 4.33-cü bənddə “ikinci halda” sözləri “dördüncü halda” sözləri ilə əvəz edilsin;

3.3. 4.34-cü bəndə “43.1” rəqəmlərindən sonra “(birinci halda)” sözləri əlavə edilsin;

3.4. 4.50-ci bənddə “395.1-ci maddəsində” sözləri “43.1-ci (ikinci və üçüncü hallarda), 395.1-ci maddələrində” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

## “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 913-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 mart tarixli 1868 nömrəli, 7 mart tarixli 1878 nömrəli, 19 mart tarixli 1893 nömrəli və 29 mart tarixli 1895 nömrəli fərmanları) 5.65-ci bəndində “(şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportuna aid hissədə), Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (xidməti və diplomatik pasporta aid hissədə)” sözləri “(Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqələrinə münasibətdə)” sözləri ilə, “sənədlərə aid hissədə” sözləri isə “icazə vəsiqələrinə münasibətdə” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

# "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

2.1. bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

# "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1834; 2018, № 2, maddə 194) 6.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"6.1. Pilot layihənin Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, Ağdaş rayonunun inzibati ərazisinə münasibətdə isə 2018-ci il fevralın 17-dən həyata keçirilməsini təmin etsin.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə"də dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2099; 2017, № 8, maddə 1521; 2018, № 2, maddə 193) ilə təsdiq edilmiş "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə"nin 3.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.2. Pilot layihə Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərinə münasibətdə 2017-ci il yanvarın 1-də, Ağdaş rayonunun inzibati ərazisinə münasibətdə isə 2018-ci il fevralın 17-də başlayır və 2019-cu il fevralın 1-də başa çatır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

# "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanının icrası ilə bağlı Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1820; 2017, № 5, maddə 821, № 11, maddə 2006; 2018, № 2, maddə 181) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9.3-cü bənddə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaitinin Cəmiyyətin" sözləri "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaitinin Fondun" sözləri ilə əvəz edilsin;

1.2. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası" üzrə:

1.2.1. 1.2.2-ci yarımbənddə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - "AİF" ASC)" sözləri "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra - Fond)" sözləri ilə əvəz edilsin;

1.2.2. 1.2.9-cu yarımbənddə və 4.1-ci bənddə "AİF" ASC-nin" sözləri "Fondun" sözü ilə, 7.3-cü bənddə "AİF" ASC" sözləri "Fond" sözü ilə əvəz edilsin;

1.2.3. 2.1-ci bənddə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun" sözləri ilə əvəz edilsin.

2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2056; 2017, № 8, maddə 1521, № 10, maddə 1777) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə dair "10.Tədbirlər Planı" hissəsinin 9.2.5-ci yarımbəndinin "Digər icraçılar/Tövsiyə" sütununda "Azərbaycan İpoteka Fondu" sözləri "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" sözləri ilə əvəz edilsin;

2.2. həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi" üzrə:

2.2.1. 3.2-ci bəndin "İmkanlar" sütununda "Azərbaycan İpoteka Fondu" ASC" sözləri "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" sözləri ilə əvəz edilsin;

2.2.2. 4.2-ci bəndin on altıncı abzasında "Azərbaycan İpoteka Fondu" ASC (bundan sonra - "AİF" ASC)" sözləri "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra - Fond)" sözləri ilə əvəz edilsin;

2.2.3. mətn üzrə ismin müvafiq hallarında "AİF" ASC" abreviaturaları ismin müvafiq hallarında "Fond" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 may tarixli 1418 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 822) ilə təsdiq edilmiş "Güzəştli mənzil" sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.6-cı yarımbənddə və 10.3-cü bənddə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun" sözləri ilə əvəz edilsin;

3.2. 6.1.18-ci yarımbənddə "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 oktyabr tarixli 3287 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1832) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın 2.3-cü bəndinin "İcraçılar" sütununda "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 913-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 mart tarixli 1865, 1869 nömrəli və 7 mart tarixli 1879 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bənddə "şəxsiyyət vəsiqəsinə və ümumvətəndaş pasportuna aid hissədə" sözləri "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqələrinə münasibətdə" sözləri ilə əvəz edilsin.

2. 2.6-cı bənddə "şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportuna aid hissədə" sözləri "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin şəxsiyyət vəsiqələrinə münasibətdə" sözləri ilə əvəz edilsin.

3. 5-ci hissə ləğv edilsin.

4. 8.0-cı bənddə "sənədlərə aid hissədə" sözləri "icazə vəsiqələrinə münasibətdə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 may 2018-ci il*

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı

**1. Giriş**

İqtisadi potensialı artdıqca səhiyyənin inkişafı üçün əlverişli şərait yaranmış və əhalinin, eləcə də uşaqların sağlamlığının qorunması problemləri ardıcıllıqla öz həllini tapmaqdadır.

Əhalinin, o cümlədən uşaqların sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş dövlət proqramlarının müstəsna rolu olmuşdur. Uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və ləvazimatlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və digər tədbirlər nəticəsində uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamikaya nail olunmuşdur. Uşaqlar arasında xəstələnmə və ölümün səviyyəsi azalmışdır. Belə ki, körpə ölümü göstəricisi hər 1000 diridoğulana 2006-cı ildə 11,9 olmuşdursa, 2016-cı ildə bu rəqəm 11,4-ə enmişdir.

Bununla yanaşı, sağlamlıq imkanları məhdud hesab edilən uşaqların sayının artması uşaqlıq dövrünə xas olan əlilliyin erkən aşkarlanması, profilaktikası və erkən müdaxiləsi xidmətlərinin səviyyəsinin gücləndirilməsinə, uşaq xəstəliklərinin profilaktikasına yönəlmiş tədbirlərin təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə milli fəaliyyət planının qəbulu və həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı (bundan sonra - Milli Fəaliyyət Planı) uşaqlıq dövrünə xas olan əlilliyin erkən aşkarlanma, profilaktika və erkən müdaxilə xidmətlərinin gücləndirilməsini, bu sahədə fəaliyyət göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasını, skrininq və genetik analiz müayinələri üçün tibb müəssisələrinin avadanlıq və reaktivlərlə təchiz edilməsini, kadrların təkmilləşdirilməsini, əhali arasında geniş maarifləndirmə işlərinin aparılmasını nəzərdə tutur.

**2. Milli Fəaliyyət Planının məqsədi və əsas vəzifələri**

2.1. Milli Fəaliyyət Planının məqsədi antenatal, neonatal və sonrakı dövrlərdə uşaqlarda risk amillərinin və xəstəliklərin erkən mərhələdə aşkar edilərək sağlamlıq imkanlarının məhdudluğu səviyyəsinin azaldılmasıdır.

2.2. Milli Fəaliyyət Planının əsas vəzifələri aşağıdakılardan ibarətdir:

2.2.1. anadangəlmə inkişaf qüsurları ilə müşahidə olunan doğuş hallarında sistemli perinatal nəzarətin aparılması;

2.2.2. erkən aşkarlanma, profilaktika və erkən müdaxilə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi;

2.2.3. az çəki ilə doğulmuş və inkişaf qüsuru olan uşaqların tibbi nəzarətdə saxlanılması məqsədi ilə registrin yaradılması;

2.2.4. əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud olan uşaqlara xidmət göstərən tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, onların müasir standartlara uyğunlaşdırılması;

2.2.5. erkən aşkarlanma, profilaktika və erkən müdaxilə xidmətləri göstərən tibb müəssisələrində kadrların bilik səviyyəsinin artırılması;

2.2.6. uşaqlarda sağlamlıq imkanları məhdudluğunun azaldılması üçün erkən aşkarlanma, profilaktika və erkən müdaxilə xidmətləri ilə bağlı maarifləndirmə işinin gücləndirilməsi.

**3. Milli Fəaliyyət Planının maliyyələşdirilməsi**

Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları və qurumları üçün nəzərdə tutulmuş vəsaitlər və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**4. Milli Fəaliyyət Planının həyata keçirilməsindən gözlənilən nəticələr**

4.1. Milli Fəaliyyət Planının həyata keçirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

4.1.1. uşaqlıq dövrünə xas olan əlilliyin erkən aşkarlanması, profilaktikası və erkən müdaxilə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi;

4.1.2. uşaqların sağlamlıq imkanlarının məhdudluğunun və əlillik səviyyəsinin azaldılması;

4.1.3. uşaqlıq dövrünə xas olan əlilliyin erkən aşkarlanması, profilaktikası və erkən müdaxilə xidmətləri işçilərinin biliklərinin artırılması.

## 5. Milli Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı

| Sıra №si | Tədbirin adı | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **5.1. Sağlamlıq imkanları məhdud olan uşaqların erkən aşkarlanması sahəsində profilaktik tədbirlər** | | | |
| 5.1.1 | Sağlamlıq imkanları məhdud olan uşaqlarla işləyən, tibb təhsili olmayan işçilərin və həmin uşaqların valideynlərinin bilik və bacarıqlarının artırılması məqsədilə psixoloji, sosial və fiziki reabilitasiya xidmətləri göstərən dövlət qurumları və ictimai birliklərin əməkdaşları üçün icbari intensiv təlim kurslarının hazırlanması və keçirilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi | mütəmadi |
| 5.1.2. | Uşaqlıq dövrünə xas olan əlillik hallarının azaldılması məqsədilə erkən aşkarlanma, profilaktika, erkən müdaxiləyə dair xidmətlərlə bağlı sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri və onlarla işləyən ictimai birliklər üçün müvafiq tibbi-profilaktika müəssisələri tərəfindən geniş maarifləndirmə işi aparılması | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | mütəmadı |
| 5.1.3. | Peyvəndlənmənin əhəmiyyəti barədə valideynlərin məlumatlılıq səviyyəsinin artırılması üçün tibb işçilərinin təlimləndirilməsi | Səhiyyə Nazirliyi | mütəmadi |
| 5.1.4. | Erkən aşkarlanma, profilaktika və erkən müdaxilə ilə bağlı yeni metodika və yanaşmaların sınaqdan keçirilməsi və elmi tədqiqatların dəstəklənməsi | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.1.5 | Kənd təsərrüfatı sahəsində çalışan fertil yaş dövründəki (15-49 yaş) qadınlar arasında kimyəvi maddələrin (pestisidlər və aqrokimyəvi maddələr, tütün tüstüsü, spirtli içkilər və s.) hamiləliyə və gələcəkdə doğulacaq uşağın sağlamlığına təsirləri ilə bağlı maarifləndirmə işi aparılması | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | mütəmadi |
| **5.2. Uşaqlıq dövrünə xas olan xəstəliklərin erkən aşkarlanması və profilaktika xidmətləri göstərən tibb müəssisələrində kompleks tədbirlərin həyata keçirilməsi** | | | |
| 5.2.1. | Erkən aşkarlanma, profilaktika və erkən müdaxilə xidmətləri göstərən tibb müəssisələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.2.2. | Erkən aşkarlanma, profilaktika və erkən müdaxilə xidmətləri göstərən həkimlərin və orta tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə beynəlxalq mütəxəssislərin iştirakı ilə perinatal dövrdə fetal exokardioqrafiya və ultrasəs müayinəsi, audiometriya, fiziki reabilitasiya və s. üzrə intensiv nəzəri və praktik təlim kurslarının təşkili | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.2.3. | Perinatal və tibbi-genetik məsləhət xidmətləri göstərən həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə beynəlxalq və yerli mütəxəssislərin iştirakı ilə tədris planlarının müasir standartlara və tələblərə uyğunlaşdırılması və onların əsasında hər il təkmilləşdirmə kurslarının keçilməsi | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.2.4. | Uşaqlarda anadangəlmə inkişaf qüsurlarının (anadangəlmə ürək qüsurları, anadangəlmə karlıq, qarın boşluğu orqanlarının anomaliyaları, sinir borusu defektləri və s.) erkən aşkarlanması və ağır dərəcəli əlilliyin profilaktikası üçün ilkin mərhələdə tibb müəssisələrinin ixtisaslaşdırılmış, habelə müasir diaqnostika avadanlığı ilə təchiz edilməsi | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.2.5. | Sağlamlıq imkanları məhdud olan uşaqlara göstərilən ambulator, stasionar və sanatoriya-kurort xidmətlərinin təkmilləşdirilməsi məqsədilə müvafiq dövlət orqan və qurumlarının tabeliyində olan sanatoriya-kurort müəssisələrinin ehtiyaclarının qiymətləndirilməsi və xidmətlərin müasir standartlara cavab verməsi və uşaqların ehtiyaclarının qarşılanması üçün maddi-texniki bazanın yaxşılaşdırılması | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi | 2018-2020 |
| 5.2.6. | Sağlamlıq imkanları məhdud olan uşaqların müalicəsində sanatoriya-kurort şəraitində yeni müalicə üsullarının tətbiqi | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2018-2019 |
| 5.2.7. | Neonatal ürək-damar cərrahiyyəsi və neyrocərrahiyyə xidmətlərinin təkmilləşdirilməsi və tətbiqi sahəsinin genişləndirilməsi | Səhiyyə Nazirliyi | 2018-2019 |
| 5.2.8. | Uşaq müəssisələrində, uşaqlara xidmət göstərən sosial xidmət müəssisələrində (uşaq evləri, məktəbəqədər təhsil müəssisələri və s.) uşaqlıq dövrünə xas olan əlilliyin erkən aşkarlaması və profilaktikası məqsədilə mütəxəssis hazırlığının həyata keçirilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2018-2020 |
| **5.3. Sağlamlıq imkanları məhdud olan uşaqların erkən aşkarlanması məqsədi ilə skrininq aparılması** | | | |
| 5.3.1. | Antenatal və neonatal skrininq (kardio, eşitmə, görmə, koqnitiv, ünsiyyət və hərəkətin inkişafı) aparılması, qiymətləndirilməsi və müayinə metodlarının təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi | 2018 |
| 5.3.2. | Geniş yayılmış irsi metabolik və hormonal pozuntuların aşkar edilməsi üçün mərkəzləşdirilmiş laborator diaqnostika imkanlarının yaradılması | Səhiyyə Nazirliyi | 2018-2019 |
| 5.3.3. | Koqnitiv, ünsiyyət və özünəqulluq bacarıqlarının inkişafı, hərəkət və psixi inkişafda geriləmənin erkən aşkarlanması məqsədi ilə müasir proqramların hazırlanması və həyata keçirilməsi | Səhiyyə Nazirliyi | 2018-2019 |
| 5.3.4. | Antenatal və neonatal dövrlərdə sağlamlıq imkanları məhdudluğunun erkən aşkarlanması məqsədilə koqnitiv, ünsiyyət, hərəkət, eşitmə, görmə patologiyaları, habelə ciddi əlilliyə səbəb olan və tez-tez rast gəlinən digər anadangəlmə qüsurların müayinəsi üçün vahid diaqnostika metodlarının geniş tətbiqi | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2018-2020 |
| 5.3.5. | Tibbi-genetik məsləhət işinin regionlarda gücləndirilməsi məqsədilə regional səviyyədə tibbi genetika üzrə müvafiq kadrların bilik və bacarıqlarının təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi | 2018-2020 |
| **5.4. Sağlamlıq imkanları məhdud olan uşaqlara müasir standart və qaydalara uyğun tibbi xidmət göstərilməsi** | | | |
| 5.4.1. | Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında və Azərbaycan Milli İdman Tibb və Reabilitasiya İnstitutunda çalışan pediatr, reabilitoloq, fizioterapevt və bədən tərbiyəsi müəllimləri üçün sağlamlıq imkanları məhdud olan uşaqlara müalicə-profilaktika müəssisələrində göstərilən tibbi xidmətlərlə bağlı uyğunlaşdırılmış nəzəri və praktik təlim kurslarının təşkili | Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi | 2018-2020 |
| 5.4.2. | Kəmiyyət və keyfiyyət indikatorları əsasında sağlamlıq imkanları məhdud olan uşaqlara hər il dövri monitorinqlər və illik qiymətləndirmələrin keçirilməsi | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.4.3. | Az çəki ilə doğulmuş və inkişaf qüsuru olan uşaqların registrinin yaradılması | Səhiyyə Nazirliyi | 2018-2019 |
| **5.5. Sağlamlıq imkanları məhdud olan uşaqlara tibbi-sosial dəstək göstərilməsi** | | | |
| 5.5.1. | Geniş yayılmış irsi metabolik və hormonal pozuntulardan əziyyət çəkən uşaqların dərman preparatları ilə təmin edilməsi | Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.5.2. | Geniş yayılmış irsi metabolik və hormonal pozuntulardan əziyyət çəkən uşaqlar üçün müvafiq pəhriz qidalarının istehsalının təşviq edilməsi | İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi | 2018-2020 |
| 5.5.3. | Sağlamlıq imkanları məhdud olan uşaqların ailələrinə tibbi-sosial dəstək göstərilməsi üçün beynəlxalq və yerli səviyyədə fəaliyyət göstərən ictimai birliklər və xeyriyyə fondları ilə əməkdaşlığın genişləndirilməsi | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| **5.6. Uşaqlarda erkən, habelə sonrakı yaş dövrlərində əlilliyin profilaktikası, aşkarlanması, müalicəsi və reabilitasiyası ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | |
| 5.6.1. | Uşaqların sağlamlıq imkanları məhdudluğunun müəyyən edilməsi ilə bağlı mövcud normativ hüquqi aktların təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2018-2019 |
| 5.6.2. | Uğurlu beynəlxalq təcrübə nəzərə alınmaqla psixoloji-tibbi-pedaqoji sahədə fəaliyyət göstərən qurumların işinin təkmilləşdirilməsi | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi | 2018-2019 |
| 5.6.3. | Uşaqların erkən, habelə sonrakı yaş dövrlərində sosial-psixoloji qiymətləndirilməsi, inkişaf xüsusiyyətlərinin aşkarlanması, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların müalicəsi və reabilitasiyası üzrə təlim-tədris proqramlarının işlənib hazırlanması və tətbiqi | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi | 2018-2020 |
| 5.6.4 | Sağlamlıq imkanları məhdud olan uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması məqsədi ilə kəmiyyət və keyfiyyət indikatorlarının hazırlanması | Səhiyyə Nazirliyi | 2018 |
| 5.6.5. | Neonatal ürək-damar cərrahiyyəsinin və neyrocərrahiyyənin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq standartlara uyğun normativ sənədlərin hazırlanması | Səhiyyə Nazirliyi | 2018-2019 |

## “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 9, № 8, maddə 598, № 9, maddə 668; 2007, № 4, maddə 320, № 5, maddə 446, № 7, maddə 712, № 11, maddə 1078; 2008, № 6, maddə 470, № 7, maddə 608; 2010, № 7, maddə 590; 2011, № 4, maddə 266, № 11, maddə 982; 2012, № 6, maddə 521; 2014, № 2, maddə 84; 2015, № 5, maddə 491; Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 986-VQD nömrəli və 6 mart tarixli 1027-VQD nömrəli qanunları) 71.2-ci maddəsində “2120” rəqəmləri “2335” rəqəmləri ilə əvəz edilsin.

Maddə 2. Bu qanunun 1-ci maddəsində nəzərdə tutulmuş dəyişiklik 2018-ci il mayın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

## “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1122-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1122-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 may 2018-ci il*

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddə 1034, № 7, maddə 1305, № 11, maddə 1965; 2018, № 1, maddə 12; Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1028-VQD nömrəli Qanunu) 106-cı maddəsinin birinci hissəsinin ikinci abzasında “2070” rəqəmləri “2280” rəqəmləri ilə əvəz edilsin;

Maddə 2. Bu qanunun 1-ci maddəsində nəzərdə tutulmuş dəyişiklik 2018-ci il mayın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2018-ci il*

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1123-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1123-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 may 2018-ci il*

## *Elbay QASIMZADƏ:* “Ulu öndərin ölkəmizin memarlıq sənətinin təbliğində və inkişafında böyük xidmətləri olub”

Ulu öndər Heydər Əliyevin ölkəmizin memarlıq sənətinin təbliğində və inkişafında böyük xidmətləri olub. AZƏRTAC xəbər verir ki, bu sözləri mayın 12-də Azərbaycan Respublikasının Memarlar İttifaqının ümummilli lider Heydər Əliyevin 95 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş plenumunda Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə deyib.





Əvvəlcə plenum iştirakçıları “Müasir Azərbaycan memarlığı” sərgisi ilə tanış olublar.

Tədbirin açılış mərasimində çıxış edən E.Qasımzadə ümummilli liderin memarlıq sənətinə olan münasibətindən və bu sahəni dərin bilməsindən söz açıb.

Onun sözlərinə görə, qəlbində memarlığa böyük bir sevgi olan ulu öndərin əsas diqqət yetirdiyi sahələrdən biri də Azərbaycan memarlığı olub.

E.Qasımzadə son illərdə şəhər və qəsəbələrimizin abadlaşdırılması, onların memarlıq simasının zənginləşdirilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə görülən işləri xüsusilə vurğulayıb. Qeyd olunub ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Azərbaycanın tarixi və memarlıq irsinin qorunması və bərpası işinə çox böyük diqqət yetirir.

Sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə bağlı çıxışlar olub. Cümhuriyyətin müasir Azərbaycanın dövlətçilik ənənələrinin formalaşmasında rolu xüsusi qeyd edilib.

Plenumda “Heydər Əliyev və milli mədəni irsin qorunması” mövzusunda Azərbərpa Elmi-Tədqiqat Layihə İnstitutunun direktoru Telman Kərimlinin məruzəsi dinlənilib. Məruzə ümummilli liderin memarlıq sənətinə göstərdiyi diqqət və qayğını əks etdirən slaydlarla müşayiət olunub.

Milli Məclisin deputatı, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov qeyd edib ki, ümummilli lider bütün mənalı həyatını Azərbaycan xalqına, müstəqil respublikamızın, o cümlədən milli memarlığın inkişafına həsr edib: “Əbədiyaşar şəhərlər salmaq, gözəl binalar tikmək, kənd və qəsəbələri abadlaşdırmaq, insanların həyatını yaxşılaşdırmaq onun həyatının mənasına çevrilmişdi. Dahi rəhbər həm də onun şah əsəri olan müstəqil Azərbaycanın memarı oldu”.

Nəzərə çatdırılıb ki, görkəmli şəxsiyyət Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanı qoruyub saxlamış, ölkəmizin müstəqil yaşaması üçün möhkəm təməl qoymuşdur. Məhz buna görə Azərbaycan xalqı qazandığı müstəqilliyə və əldə etdiyi bütün nailiyyətlərə görə dahi oğluna daim minnətdardır.

Fəttah Heydərov, həmçinin Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.

Azərbaycan Memarlar İttifaqının katibi, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyev respublikamızda memarlığın inkişafına, abidələrin qorunmasına böyük töhfələr verib. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi sovet dövründə respublikamızın memarlığı böyük inkişaf yolu keçib. Bu baxımdan ötən əsrin 70-80-ci illərini Azərbaycanın sovet memarlığının intibah dövrü adlandırmaq olar. Çünki bu illərdə ulu öndərin təşəbbüsü ilə respublikada nəhəng işlər görülüb, ölkənin bütün şəhərlərinin baş planları yaradılıb, şəhər və kəndlərimizin siması yenilənib, Bakı şəhərində irihəcmli tikinti işləri həyata keçirilib, Bakı bulvarı inkişaf edib.

Rektor qeyd edib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ikinci dövrdə də memarlığa, inkişafa və quruculuğa həvəsi bu illərdə özünü göstərib. Məhz 90-cı illərin sonunda respublikada tikintinin canlanması onun ölkədə yaratdığı sabitlik, inkişaf ab-havasının nəticəsi idi.

“Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi” mövzusunda çıxış edən Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvü Yusif İbrahimli öz məruzəsində Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi və fəaliyyəti ərzində gördüyü işlər barədə ətraflı məlumat verib.

Y.İbrahimli bildirib ki, müsəlman Şərqində ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ölkəmizdə yüksək səviyyədə qeyd edilir. Bu ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsi isə cümhuriyyətin tariximizdə tutduğu yerə verilən böyük qiymətin bariz nümunəsidir.

Nəzərə çatdırılıb ki, 1918-ci ilin mayın 28-də elan olunan Azərbaycan Xalq Cümhuriyyəti tarixin ən çətin dövründə üzərinə götürdüyü şərəfli missiyanı uğurla yerinə yetirib. Azərbaycan Xalq Cümhuriyyəti irqi, milli, dini, sinfi bərabərsizliyi ləğv edib, bütün vətəndaşların hüquq bərabərliyi təmin olunub. Ölkənin sərhədləri müəyyənləşdirilib, bayrağı qəbul olunub, eləcə də himni və gerbi hazırlanıb. Ana dili dövlət dili elan olunub, mədəniyyətin inkişafına xüsusi diqqət yetirilib.

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə bu ilin mart ayında Bakıda keçirilmiş Beynəlxalq Memarlar İttifaqının Büro iclasının yekunlarından bəhs edib və bunun nəticəsi olaraq 2019-cu ildə Bakıda Beynəlxalq Memarlar Forumunun və BMİnin Baş Assambleyasının keçirilməsinin qərara alındığını bildirib. Sədr bu tədbirin ölkəmizin inkişafında prioritet istiqamətlərdən olan tarixi irsin qorunub saxlanılması və turizmin inkişafı üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Tədbirdə Azərbaycan Memarlar İttifaqının üzvlərinə milli memarlıq sənətinin inkişafında xüsusi xidmətlərinə görə “Mikayıl Useynov” xatirə medalı və “Ustad Memar” Peşəkarlıq Şəhadətnaməsi təqdim olunub.

Sonda plenumun qətnaməsi qəbul olunub. Qətnamədə deyilir ki, qarşısına müstəqil, azad, demokratik respublika qurmaq kimi şərəfli məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya göstərdi.

Plenum “Azərbaycan memarları poçt markalarında” silsilə albomunun növbəti buraxılışını ümummilli lider H.Əliyevin respublikaya rəhbərliyi dövründə milli memarlıq irsimizin qorunması və həmin dövrdə memarlığın inkişafı sahəsində görülmüş işlərə, inşası həyata keçmiş layihələrin illüstrasiyalarına həsr olunması barədə qərar qəbul edib.

Plenum əmin olduğunu bildirir ki, milli memarlıq irsimizin qorunması və memarlığın inkişafı sahəsində görülmüş işlərin tədqiqi ilə bağlı araşdırmaların aparılması davam edəcək və Azərbaycan Memarlar İttifaqının fəaliyyətinin prioritet məsələlərindən biri olaraq diqqət mərkəzində saxlanılacaq.

## YAP-ın 25-ci ildönümü münasibətilə başlanan ağacəkmə kampaniyası başa çatıb

### *Kampaniya müddətində ümumilikdə 700 mindən çox ağac əkilib*





Mayın 12-də Yeni Azərbaycan Partiyasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə layihəsi olan “700 min ağac əkək” kampaniyasına yekun vurulub. AZƏRTAC xəbər verir ki, YAP-ın yaranmasının 25 illiyi münasibətilə keçirilən kampaniyanın Xəzər rayonunun Türkan qəsəbəsi ərazisində keçirilən son ağacəkmə aksiyasında YAP İdarə Heyətinin və Siyasi Şurasının üzvləri, partiyanın fəalları, Milli Məclisin deputatları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, bu aksiya Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi ilə əlaqədardır. Kampaniya çərçivəsində YAP-ın üzvlərinin sayı qədər - 700 min ağac əkilməsinin nəzərdə tutulduğunu bildirən Əli Əhmədov deyib: “Kampaniya ötən ilin noyabr ayından başlayıb. Bugünə qədər YAP üzvləri tərəfindən Azərbaycanın bütün regionlarında 700 mindən çox ağac əkilib. Bu gün kampaniyaya yekun vurulur. Partiyamızın üzvləri bu təşəbbüsə yüksək fəallıqla qoşuldular. Bu kampaniyanın mənası ondan ibarətdir ki, YAP ekologiyanın təmizliyinə, yaşıllaşdırma işlərinə öz töhfəsini verir. Ümummilli lider Heydər Əliyev həmişə yaşıllaşmaya, ağac əkilməsinə böyük önəm verib. Prezident İlham Əliyev də yaşıllaşdırma işlərinə böyük önəm verir və bu günlərdə burada şəxsən ağac əkib. Ən güclü partiya olaraq bütün sahələrdə örnək olduğu kimi partiyamız ekoloji tarazlığın təmin edilməsi sahəsində də öz rolunu oynamalıdır və oynayır”.

Əli Əhmədov bildirib ki, bu cür kampaniyalar ekologiyanın qorunub saxlanmasında mühüm rol oynamaqla yanaşı, mütəşəkkilliyin də göstəricisidir. “Məmnunluq hissi ilə demək istəyirəm ki, partiya bütün sahələrdə öz mütəşəkkilliyini gücləndirmək üçün müxtəlif formalardan istifadə edir və bu kampaniya da onlardan biridir”, - deyə Baş nazirin müavini vurğulayıb.

## Avropa və Gürcüstan yəhudiləri dini icmalarında görüş keçirilib





Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov mayın 11-də Bakı şəhərində yerləşən Avropa və Gürcüstan yəhudilərinin sinaqoqunu ziyarət edib, dini icmaların fəaliyyəti ilə tanış olub. AZƏRTAC xəbər verir ki, əvvəlcə sinaqoqun inzibati binası ilə tanışlıq olub, ibadət zallarına, eləcə də iclas otaqlarına baş çəkilib.

Daha sonra Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski və Gürcüstan Yəhudilərinin Bakı dini icmasının sədri Abik Çaruxçev ilə ayrı-ayrılıqda görüş keçirilib. Görüşdə icma sədrləri qeyd olunan yəhudi icmalarının tarixi haqqında geniş məlumat verərək dövlətin onlara göstərdiyi qayğıdan, yaradılan yüksək şəraitdən məmnunluqlarını ifadə ediblər. Etibar Nəcəfov öz növbəsində ümummilli lider Heydər Əliyevin yəhudi dini icmalarına yüksək diqqət və qayğı ilə yanaşmasından, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkədə mövcud tolerantlıq və multikultural ənənələrin yaşadılmasında yəhudi icmalarının xidmətlərindən bəhs edib. Həmçinin tarix boyu Azərbaycanda bütün xalqların qarşılıqlı anlaşma şəraitində yaşadığını, antisemitizmin olmadığını vurğulayıb.

Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov da görüşdə iştirak etmişdir.

Avropa yəhudilərinin (aşkenazilərin) Azərbaycana gəlişi əsasən XIX əsrin ikinci yarısında Bakıda neft sənayesinin yüksək inkişafı dövrünə təsadüf edir. Bakıya gələn ziyalı Avropa yəhudiləri içərisində memarlar, müəllimlər, həkimlər, vəkillər və s. ixtisas nümayəndələri var idi. 1910-cu ildə Bakıda Avropa yəhudiləri üçün sinaqoq inşa edilib və bu məbəd nəinki ibadət yeri kimi, eyni zamanda, təlim-tədris ocağı kimi fəaliyyət göstərib. Şəhərdə “iyeşiva” adlı xüsusi yəhudi məktəbləri də fəaliyyət göstərirdi ki, bu tədris ocaqlarında “Tövrat”, “Talmud” və “Mişna” kimi müqəddəs kitablar öyrədilirdi. Yəhudi qızları üçün də xüsusi gimnaziya və məktəblər açılmışdı. Tarixən Azərbaycan xalqı burada yaşayan yəhudilərə müsbət yanaşmış, dünyada antisemitizmin tüğyan etdiyi dövrlərdə belə onlara yad münasibət göstərməyib.

Azərbaycanda fəaliyyət göstərən Gürcüstan yəhudiləri isə əski zamanlardan Gürcüstan ərazisində məskunlaşan yəhudi diasporunun nümayəndələridirlər. Sonrakı dövrlərdə onların bir hissəsi Azərbaycana köçüb və əsasən Bakı şəhərində məskunlaşıblar. Ötən əsrin 60-80-ci illərində Azərbaycanda yaşayan Gürcüstan yəhudilərinə aid yüzlərlə ailə İsrailə, Avropa ölkələrinə, ABŞ-a və digər ölkələrə köçüb. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Gürcüstan yəhudi icmasının mənsubları arasında digər ölkələrə həmişəlik köçmək istəyənlərin sayında əhəmiyyətli dərəcədə azalma olub.

Avropa və Gürcüstan yəhudilərinin sinaqoqu Bakı şəhərində köhnə məbədin yerində ucaldılıb və 2003-cü ilin mart ayının 9-da açılışı olub. Öz möhtəşəmliyinə görə Avropada ən böyük sinaqoqlardan sayılır. Məbəd bakılı memar Aleksandr Qarberin layihəsi üzrə “Qüds memarlıq” tərzində inşa edilib.

Avropa Yəhudilərinin Bakı dini icması və Gürcüstan Yəhudilərinin Bakı dini icması 2009-cu ilin dekabrında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yenidən dövlət qeydiyyatından keçiblər.

Bu gün yəhudi uşaqları bərabərhüquqlu Azərbaycan Respublikası vətəndaşları kimi yüksək təhsil alırlar. Belə ki, dövlətin xüsusi qayğısı ilə Bakının Nəsimi rayonu ərazisində yerləşən 46 saylı məktəbin bazasında yəhudi milliyyətindən olan şagirdlər üçün yəhudi sinifləri fəaliyyət göstərir. Məktəb binasının saxlanılması xərcləri, həmçinin müəllimlərin maaşı dövlət tərəfindən ödənilir, digər xərclər isə “Vaad-L-Xatzola” beynəlxalq humanitar təşkilat tərəfindən təmin edilir. Burada şagirdlərə dünyəvi dərslərlə yanaşı, yəhudi millətinə məxsus adət və ənənələr öyrədilir. Dərslər beş dildə - Azərbaycan, rus, ivrit, ingilis və fransız dillərində keçirilir. Şagirdlər üçün pulsuz nəqliyyat, gündə 3 dəfə qidalanma (koşer) təmin edilir, eləcə də əlavə olaraq rəsm, musiqi, şahmat dərnəkləri təşkil olunur.

Bundan başqa, Bakıda yaşayan yəhudi uşaqları üçün “Xabad-Or-Avner” Təhsil Mərkəzi “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Heydər Əliyev Fondu və “Or-Avner” Beynəlxalq Fondu tərəfindən inşa edilib. 2007-ci il mayın 31-də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə Xətai rayonu ərazisində mərkəzin təməlqoyma mərasimi keçirilib. Təhsil Mərkəzinin tikintisi 2010-cu ildə başa çatıb. 2010-cu il oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və MDB Yəhudi İcmaları Federasiyasının və “Or-Avner” Beynəlxalq Fondunun prezidenti Lev Levayev Təhsil Mərkəzinin açılışında iştirak ediblər. Bu üçmərtəbəli kompleks ən müasir tələblər səviyyəsində inşa olunub. Mərkəzdə müasir avadanlıq və lazımi dərs vəsaitləri ilə təchiz edilən 30 sinif otağı, 700 kvadratmetr sahədə süni örtüklü açıq stadion var. 450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyətinin əsaslarının tədris olunmasıdır. Hazırda burada uşaq bağçasında təlim keçən uşaqları da nəzərə almaqla 200 şagird təhsil alır və 40 müəllim çalışır.

Respublikada, həmçinin Azərbaycan-İsrail Dostluğu Mərkəzi, “Soxnut” yəhudi agentliyi, “Coynt” və “Vaad-L-Xatzola” adlı yəhudi ənənəsinin qorunması və mühafizəsi ilə məşğul olan təşkilatlar, yəhudi icmalarının mədəniyyət mərkəzləri, “Yeva” adlı qadın cəmiyyəti və digər qeyri-hökumət təşkilatları fəaliyyət göstərir.

Ölkəmizdə yəhudi xalqının dini bayramları ilə yanaşı, əlamətdar günlərlə bağlı anım tədbirləri də yüksək səviyyədə qeyd edilir. Ölkəmizdə Holokost - yəhudilərin II Dünya müharibəsi zamanı faşizm rejimi tərəfindən soyqırımına məruz qalması günü də qeyd olunur. Dövlət başçısı İlham Əliyev bu günlə bağlı Azərbaycan Respublikasının yəhudi icmalarına müraciətlər ünvanlayır.





# 7,1 milyon manatlıq layihə, 9 müəssisə

## Tezliklə fəaliyyətə başlayacaq Masallı Sənaye Məhəlləsi Prezident İlham Əliyevin modern sənayeləşmə siyasətinin növbəti mühüm töhfəsidir





*Əvvəli 1-ci səh.*

İlkin olaraq məhəllədə 9 müəssisə fəaliyyətə başlayacaq. Bu layihələrin dəyəri 7,1 milyon manat təşkil edir. İlkin mərhələdə fəaliyyətə başlayacaq müəssisələrdə 229 nəfər işçi çalışacaq.

### Məhəllənin iki rezidenti artıq fəaliyyətə başlayıb

Artıq iki rezident məhəllədə fəaliyyətə başlayıb. Müəssisələrdən biri park və istirahət mərkəzləri üçün zibil qabları və skamyalar, elektrik dirəkləri istehsal edir. Hətta Bakı Dənizkənarı Milli Parkdan və Astara dənizkənarı parkdan sifarişlər də artıq qəbul edilib.

Digər müəssisə isə stol-stul istehsal edəcək. Hazırda müəssisə icarəyə götürdüyü ərazidə avadanlıqlarını quraşdırır. Burada stol-stulun hazırlanma prosesi, parça kəsilmə, üzləmə və rəngləmə sexləri fəaliyyət göstərəcək.

Masallı Sənaye Məhəlləsində yaradılan müasir infrastruktur və güzəşt-dəstək sxemləri tamamilə dünya praktikasına uyğundur və əminliklə söyləmək olar ki, buradakı şərait investorların ürəyincə olacaq. Eyni zamanda, bu kompleks Masallının iqtisadi inkişafının təmin edilməsinə, kiçik və orta sahibkarlığın daha geniş vüsət almasına, ən başlıcası, əhalinin işlə təmin edilməsinə kömək göstərəcək. Eləcə də sahibkarlığa, iş adamlarına xüsusi diqqətin verilməsinə, onların fəaliyyət dairəsinin genişləndirilməsinə də xidmət edəcək.

### Dövlət kiçik sahibkarlara əlverişli şərait yaradır

Ölkədə sənaye məhəllələrinin yaradılması dövlət başçısının "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli fərmanı ilə müəyyən edilib. Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal, xidmət sahəsində məşğulluğunun artırılmasıdır.

Ümumiyyətlə, sənaye məhəllələri üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi, hazır istehsalat sahələri idarəedici təşkilatın daimi istifadəsinə verilir və yalnız sənaye məhəlləsinin fəaliyyəti məqsədi ilə istifadə edilir. Sənaye məhəlləsinin ərazisində torpaqlar sənaye məhəlləsinin iştirakçılarına sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair imzalanmış müqavilənin müddətinə uyğun olaraq icarəyə verilir.

Sahibkar öz müəssisəsi üçün infrastrukturun yaradılmasına pul xərcləmir. Sənaye məhəllələrinin ərazisində xarici və daxili infrastruktur (elektrik enerjisi və isitmə, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə obyektləri, inzibati obyektlər və s.) yaradılır. Sadəcə olaraq, sahibkar öz texniki avadanlığını icarəyə götürdüyü ərazidə quraşdırmaqla fəaliyyətə başlayır.

Bir sözlə, bu məhəllələr dövlətin sənaye potensialının inkişaf zəncirində növbəti və möhkəm halqaya çevrilməklə ölkənin ixrac strukturunun qeyri-neft sektoru lehinə dəyişdirilməsinə ciddi şəkildə kömək edir.

### Proqram kimi təqdim edilən layihələr artıq reallaşır

İnkişaf etməkdə olan Azərbaycan sənaye sektorunda 2014-cü ildən başlayaraq təşviq olunan innovativ yeniliklər bu sahədə həqiqətən, böyük uğurların əldə olunmasını şərtləndirib.

Prezident İlham Əliyevin tapşırığı ilə şənayenin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi, sənaye parklarının və məhəllələrinin yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Artıq demək olar ki, Azərbaycanda fəaliyyət göstərən sənaye park və məhəllələrində avtomobildən tutmuş yüzlərlə çeşiddə məhsul istehsal edilərək "Made in Azerbaijan" brendi ilə yerli və xarici bazarlara çıxarılır. Hazırda ölkəmizdə Neftçala Sənaye Məhəlləsi fəaliyyət göstərir. Masallı Sənaye Məhəlləsi də tezliklə fəaliyyətə başlayacaq. Hacıqabul və Sabirabad sənaye məhəllələrində isə tikinti-quruculuq işləri gedir.

Prezident İlham Əliyev ötən ilin sentyabrın 24-də Neftçala Sənaye Məhəlləsinin açılışında vurğulamışdır ki, ölkəmizdə uğurlu sənayeləşmə siyasəti aparılır. Dövlət sənaye məhəllələrinin yaradılması ilə iş adamlarına dəstək göstərir və əvvəlki dövrdə proqram kimi təqdim edilən layihələr artıq reallaşır. Tezliklə bütün rayonlarda sənaye məhəllələri yaradılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın uzunmüddətli inkişafına xidmət edən qaz kəməri

## *Prezident İlham ƏLİYEV:*
## "Cənub qaz dəhlizi" reallıqdır. Bu reallığı biz yaratmışıq"

*Əvvəli 1-ci səh.*

Beləliklə, həmin il fevralın 12-də Bakıda Məşvərət Şurasının ilk toplantısı keçirildi. Növbəti, 2016-cı ilin fevral ayının 29-da Bakı yenidən Məşvərət Şurasının ikinci iclasına evsahibliyi etdi. 2017-ci il fevralın 23-də şuranın yenidən Bakıda toplanması da sübut etdi ki, Azərbaycan "Cənub qaz dəhlizi" kimi möhtəşəm bir layihənin aparıcı qüvvəsidir.

Məşvərət Şurasının bu ilki iclası da Bakıda keçirildi. Tədbirdə "Cənub qaz dəhlizi"nin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət Şurasının həmsədri Maroş Şefçoviç iştirak edirdilər.

Qeyd etdiyimiz kimi, toplantının yekunlarına dair "Birgə Bəyannamə" imzalandı. Bununla bağlı keçirilən mətbuat konfransında bildirildi ki, layihə uğurla icra olunub: "Bu ilin ortalarında Azərbaycan təbii qazı Türkiyəyə nəql ediləcək, 2020-ci ildə isə Avropaya çatdırılacaq. Çünki dünya qaz bazarına çıxış Azərbaycanın prioritetlərindən biridir. Azərbaycan "Cənub qaz dəhlizi" ilə Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir".

Məşvərət Şurasının həmsədri M.Şefçoviç də bildirmişdir ki, bu il "Cənub qaz dəhlizi" layihəsi icrası baxımından əlamətdar hadisələrlə yadda qalacaq: "Cənub qaz dəhlizi" strateji əhəmiyyətə malik layihədir. Avropanın maliyyə qurumları da bu layihəyə öz dəstəyini göstərir. Avropanın müvafiq bankları artıq həm TANAP, həm də TAP-a maliyyə vəsaiti ayırıb". O həmçinin qeyd etmişdir ki, Türkmənistanın da "Cənub qaz dəhlizi"nə marağı böyükdür. "Transxəzər" qaz boru kəməri ilə bağlı Türkmənistan tərəfi ilə danışıqlar aparılır. Azərbaycan da bu prosesdə fəal iştirak edir. Eləcə də İranın "Cənub qaz dəhlizi"nə qoşulması üçün mümkün variantlar nəzərdən keçirilir. Bu, layihənin əhəmiyyətinin daha bir göstəricisidir.

ABŞ-ın Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunun nümayəndəsi isə ABŞ-ın Avropada enerji təchizatı marşrutlarının şaxələndirilməsində maraqlı olduğunu nəzərə çatdırmışdır. O, Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün "Cənub qaz dəhlizi"ni əhəmiyyətli layihə kimi dəyərləndirmişdir.

"Cənub qaz dəhlizi" layihəsi iştirakçısı olan bütün tərəflərin uzunmüddətli maraqlarını təmin edəcək. Avropanın enerji xəritəsini dəyişdirəcək bu layihə 7 dövlətin, onlarca şirkət və topdan qaz alıcısının sıx əməkdaşlığı sayəsində gerçəkləşir.

Layihədə Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Albaniya tərəfdaşlıq edirlər. Daha 3 Balkan ölkəsi - Xorvatiya, Monteneqro, Bosniya və Herseqovina isə növbəti mərhələlərdə bu sıraya qoşulacaqlar. Başqa sözlə, layihənin coğrafiyası getdikcə genişlənir. Çünki bu, hər bir iştirakçıya fayda gətirən layihədir. Burada tərəfdaşlıq edən bütün ölkələr və şirkətlər qazanc əldə edəcəklər. Artıq elə bir əməkdaşlıq formatı yaradılıb ki, həm hasilatçı, yəni, Azərbaycan, həm tranzit ölkələr, həm də istehlakçılar ortaq maraqlar əsasında çalışırlar.



Layihənin uğurunu təmin edən əsas səbəb də məhz budur, sıx tərəfdaşlığın, qarşılıqlı maraqların yaradılmasıdır. Bu istiqamətdə isə təşəbbüsçüsü Azərbaycan olan Məşvərət Şurasının toplantılarının xüsusi rolu var. Toplantı iştirakçılarının da qeyd etdiyi kimi, "irəliləyişə təkcə kəmərin keçdiyi ölkələrdə göstərilən böyük səylər, görülən işlər sayəsində deyil, həm də bu masa ətrafında yaradılmış yaxşı yaradıcı mühit, mütəmadi məlumat mübadiləsi, bu cür genişmiqyaslı layihə ilə bağlı davamlı olaraq çıxan problem və çağırışları həll etmək üçün göstərilən səylər sayəsində nail olunub".

Məhz bütün bunlara görə də cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda Azərbaycan Prezidenti Məşvərət Şurasının toplantılarının əhəmiyyətini bir daha vurğulamışdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Aqrar sektorun sənayeləşməsi dövrün tələbidir



*Əvvəli 1-ci səh.*

Aqroparkların bir üstünlüyü də istehsal, emal, satış və texniki xidmətlərin kompleks şəkildə həyata keçirilməsidir. Digər tərəfdən, aqroparkların ilin bütün fəsillərində məhsul yetişdirmək imkanı var. Bu, fasiləsiz istehsal və ixrac imkanı deməkdir. Azərbaycan da bu imkandan yararlanaraq il boyu məhsul ixrac etməklə xarici bazarda yerini qorumağa çalışır.

İxracdan danışıb fındıqçılıqdan bəhs etməmək mümkün deyil. Fındıqçılıq Azərbaycanın ənənəvi bitkiçilik sahələrindən sayılır. Bu məhsulun istər ölkə daxilində, istərsə də xaricdə alıcısı başının üstündədir. Elə buna görədir ki, ixracda pomidordan sonra fındıq ikinci yerdədir və yüksək gəlir gətirməyi ilə seçilir.

Tütünçülük də seçilən sahələrdəndir. Bu sahənin Azərbaycanda ən yüksək inkişaf dövrü ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Amma sonrakı illər məlum səbəblərdən bütün sahələrdə olduğu kimi, tütünçülükdə də durğunluq yarandı. Səbəb emal müəssisələrinin işləməməsi, xarici bazara məhsul çıxarmaq imkanının olmaması idi. Ölkədə həyata keçirilən aqrar islahatlar çərçivəsində tütünçülüyün inkişafı ilə bağlı qəbul edilən qərarlar isə bu tənəzzülə son qoydu. Məsələn, 2015-ci ildə cəmi 1300 hektarda tütün əkilmişdisə, cari ildə bu rəqəm 3300 hektara çatıb. Bu isə ixracdan asılılığa son qoyulması, əlavə ixrac imkanı deməkdir.

Baramaçılıq da sənayeləşmə tələb edən sahədir. Ümumiyyətlə, Azərbaycanda ipəkçiliyin tarixi qədimdir. Azərbaycan kəlağayısı istər Şərqdə, istərsə də Avropada məşhur idi. Kəlağayıların incəliyi və naxış bolluğu alıcıları özünə cəlb edirdi. Azərbaycanın müxtəlif bölgələrində kəlağayı sexləri olsa da, Şəki əsas baza rolunu oynayırdı. Ötən əsrdə sənaye üsulu ilə işləyən Şəki İpək Kombinatı fəaliyyət göstərirdi. Bu gün baramaçılığın dirçəldilməsi kombinatın fəaliyyətini yenidən canlandırıb. Hazırda kombinat yerli xammalla təchiz olunur. Təkcə ötən il ölkədə 240 ton barama tədarük edilmişdir. Cari ildə isə 450-500 ton barama tədarükü proqnozlaşdırılır.

Aqrar sektorda ənənəvi sahələrin dirçəldilməsi, sənayeləşmə məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təminatında da mühüm rol oynayır. Məsələn, məlumdur ki, pambığın əkin coğrafiyası digər məhsullara nisbətən genişdir. Təkcə pambıq sahələrinin artırılması 200 minə yaxın insanın işlə təmin edilməsinə imkan yaradır. Yəni, daha çox ailə gəlir əldə edib güzəranlarını yaxşılaşdırır. Digər sahələrdə də həmçinin - daha sürətli inkişaf və sənayeləşmə həm də daha çox iş yerinin açılması ilə nəticələnir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Şanxay Əməkdaşlıq Təşkilatının mənzil qərargahında Azərbaycan mədəniyyəti günü keçirilib

Mayın 11-də Şanxay Əməkdaşlıq Təşkilatının Pekindəki mənzil qərargahında Azərbaycan mədəniyyəti günü keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun, Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) və Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Çin dövlət qurumlarının rəsmiləri, 30-a yaxın ölkənin Pekindəki səfiri, diplomatik korpusun təmsilçiləri, Çin ictimaiyyətinin nümayəndələri, bu ölkədə yaşayan azərbaycanlılar iştirak ediblər. Mədəniyyət günü Azərbaycanın ŞƏT çərçivəsində keçirdiyi ilk tədbir olub.

Qonaqlar ŞƏT-in mənzil qərargahının həyətində Azərbaycanın mədəniyyətini, tarixi və mədəni abidələrini, müasir memarlıq incilərini əks etdirən fotokompozisiyalardan ibarət, habelə Bakının 2025-ci ildə Ümumdünya Sərgisinə evsahibliyi üçün namizədliyinə dair stendlərlə tanış olublar.

Tədbir çərçivəsində təşkilatın binasında "Azərbaycan mirvarisi" adlı sərgidə Azərbaycanın müxtəlif bölgələrinə aid xalçalar, milli musiqi alətləri, misgərlik sənəti nümunələri, milli geyimlərimiz, gənc rəssam Fidan Kimin Azərbaycan və Çin ornamentlərini özündə əks etdirən əsərləri nümayiş olunub. Bundan başqa, tədbir iştirakçıları xalqımızın xalça toxuma və şəbəkə sənəti ilə yaxından tanış olmaq imkanı qazanıblar. Qonaqlara Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinə, o cümlədən musiqisinə, ədəbiyyatına, xalçaçılıq sənətinə, mətbəxinə aid müxtəlif nəşrləri paylanılıb.

Tədbirin aparıcıları ölkəmizin qədim tarixə, zəngin mədəniyyətə malik olduğunu deyiblər. Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyətini təqdim etmək üçün "ŞƏT bizim birgə evimizdir" layihəsi üzrə keçirilən silsilə tədbirlər çərçivəsində bu dəfə istisna olaraq ŞƏT-ə üzv olmayan, lakin təşkilatın "Dialoq üzrə tərəfdaşı" statusuna malik Azərbaycanın mədəniyyət günü keçirilir. Bu, Azərbaycanın ŞƏT ilə əməkdaşlığa verdiyi əhəmiyyətin və özünü bu ailənin bir üzvü olaraq görməyinin ən bariz göstəricisidir.

Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Rəşid Əlimov bu cür tədbirlərin ŞƏT-də təmsil olunan ölkələrin mədəni əlaqələrinin dərinləşməsi, dövlətlər arasında ənənəvi dostluğun və əməkdaşlığın genişlənməsinə xidmət etdiyini deyib. R.Əlimov bu gün qəlbləri oxşayan musiqi, alovlu rəqs, lirik poeziya vasitəsilə əfsanələr yurdu, zəngin və bərəkətli Azərbaycanın qədim, rəngarəng və fərqli mədəniyyəti ilə tanış olmaq imkanı yarandığını deyib.

ŞƏT-in baş katibi ötən ay Azərbaycanda prezident seçkilərinin keçirildiyini xatırladıb, yenidən dövlət başçısı seçilən İlham Əliyevin ölkəsinin Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri və əməkdaşlığı gücləndirməyə sadiqliyini bəyan etdiyini, hazırkı tədbirin bunun bariz göstəricisi olduğunu deyib.

Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı tədbirin Azərbaycan üçün əlamətdar bir vaxtda - müasir Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə və müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə təsadüf etdiyini bildirib.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində sürətlə inkişaf edən Azərbaycanın fəal xarici siyasət yürütdüyünü diqqətə çatdıran səfir ölkəmizin öz nüfuzu ilə seçilən Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini, qurumun işinə daha çox töhfə verə bilmək məqsədilə təşkilatdakı mövcud statusunu yüksəltmək istəyində olduğunu vurğulayıb.

Aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkisində baş katib Rəşid Əlimovun rəhbərlik etdiyi ŞƏT nümayəndə heyətinin müşahidəçilik missiyasını uğurla yerinə yetirdiyini diqqətə çatdıran Ə.Zeynallı missiyanın fəaliyyətinin və yekun bəyanatının Azərbaycan hökuməti və beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildiyini deyib.

Səfir Ə.Zeynallı Heydər Əliyev Fondunun tədbirin ərsəyə gəlməsində göstərdiyi böyük dəstəyi vurğulayaraq, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi fondun fəaliyyəti nəticəsində Azərbaycan mədəniyyətinin bütün dünyada layiqincə təqdim və təbliğ olunduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, açıq və tolerant mühiti ilə seçilən Azərbaycan, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq və əməkdaşlığın, eyni zamanda, siyasi müzakirələrin aparıldığı, mədəni və dini liderlərin bir araya toplaşdığı qlobal mərkəz olaraq tanınır. Ölkəmizin paytaxtı Bakı isə dünya şöhrətli layihələrə yüksək səviyyədə evsahibliyi etməyi bacarır. 2012-ci il "Eurovision" mahnı müsabiqəsi, 2015-ci il ilk Avropa Oyunları, 2017-ci il İslam Həmrəyliyi Oyunları və 2016-cı ildən başlayaraq "Formula-1" Qran-prisi kimi mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi etmiş Bakı, 2025-ci ildə Ümumdünya Sərgisinin keçirilməsi üçün namizəd şəhərdir.

Çıxışlardan sonra Azərbaycana aid videoçarx nümayiş olunub.

Sonra səhnə incəsənət ustalarının ixtiyarına verilib. "Mirvari" rəqs ansamblının ifasında rəqslərimiz təqdim olunub. Solist Ülkər Əliyeva, tarzən Şəhriyar İmanov və onun qrupunun ifasında mahnı və etno-caz kompozisiyaları tamaşaçıların marağına səbəb olub. Azərbaycanın xalq artisti Alim Qasımov və sənətkarın qızı, əməkdar artist Fərqanə Qasımova muğam dəsgahlarını ifa ediblər.

Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin təmas və ünsiyyət qovşağı rolunu oynayan Azərbaycan özünün mədəniyyəti, incəsənəti, musiqisi, ədəbiyyatı, sənətkarlığı ilə həmişə diqqəti cəlb edib. Azərbaycan tarixən Qərb və Şərq, Şimal və Cənub arasında mədəni körpü rolunu oynayıb və bu gün də oynamaqdadır. Uzun illər Azərbaycanda müxtəlif etnik qruplar və dinlər sülh, harmoniya və qarşılıqlı hörmət şəraitində birgə yaşayıblar. Etnik və dini müxtəliflik və multikulturalizm Azərbaycanda sadəcə dövlət siyasəti deyil, eyni zamanda, həyat tərzidir. Heydər Əliyev Fondu öz növbəsində Azərbaycan mədəniyyətinin, multikulturalizm dəyərlərinin inkişafı, onun xaricdə tanıdılması istiqamətində böyük işlər görür. Müxtəlif ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin, sərgilərin, təqdimatların təşkili, ölkəmizə aid nəşrlərin xarici dillərə tərcümə olunaraq nəşri, Bakıda beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi xalqımızın zəngin mədəni irsinin təbliğində əhəmiyyətli rol oynayır.

Azərbaycan musiqisinin valehedici təsirinə düşən qonaqlar rəqqaslarımızla birgə "Yallı" gediblər.

Konsert proqramı boyunca səhnədə böyük ekranda Azərbaycana, onun tarixinə, görməli yerlərinə, müasir inkişafına, mədəniyyətinə, memarlığına, Azərbaycanda təşkil olunmuş beynəlxalq tədbirlərə, Heydər Əliyev Fondunun ölkəmizdə və xaricdə Azərbaycan mədəniyyətinin tanıdılması istiqamətində keçirdiyi tədbirlərə, Azərbaycanın tolerant və multikultural dəyərlərinə aid videoçarxlar təqdim olunub.

Azərbaycan mədəniyyət günü milli mətbəximizin təamları olan dolma, kabab, plov, kükü, paxlava, şəkərburanın təqdim olunduğu ziyafətlə başa çatıb.

Qeyd edək ki, Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın iştirakı ilə yaradılan dövlətlərarası beynəlxalq təşkilatdır. Ötən il Hindistan və Pakistan ŞƏT-ə tamhüquqlu üzv qəbul edilib. Azərbaycan dünya əhalisinin təxminən yarısını, dünya üzrə ümumi daxili məhsulun (ÜDM) dördə birini, Avrasiya ərazisinin 80 faizini əhatə edən Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə və əməkdaşlığa böyük əhəmiyyət verir. Ölkəmiz təşkilatda "Dialoq üzrə tərəfdaş" statusu ilə təmsil olunur.

Qeyd edək ki, Azərbaycan mədəniyyəti günü Çinin kütləvi informasiya vasitələrinin diqqətində olub. Çin Mərkəzi Televiziyası (CCTV) tədbir barədə 1 saatlıq geniş reportaj hazırlayıb. Bundan başqa, informasiya agentlikləri, nüfuzlu qəzetlər məqalələr və xəbərlər təqdim ediblər.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ 100 1918 2018

# Azərbaycan Xalq Cümhuriyyəti

*Keçmişini öyrənməyən gələcəyini qura bilməz!*

*Tarix təkrarlanır, odur ki, olmuşları öyrənib lazımi nəticə çıxarmaq və bir daha səhv etməmək üçün növbəti mərhələlərdə nəzərə almaq vacibdir!*

*XX əsrin əvvəllərində Azərbaycan xalqı böyük zəhmət və qurbanlar bahasına dövlət müstəqilliyi qazandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin ömrü cəmi 23 ay oldu...*

*Ötən əsrin sonlarında qazanılan dövlət müstəqilliyi də eyni aqibəti yaşayacaqdı. Əgər ulu öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdaraq Azərbaycanı parçalanmaqdan, dövlət müstəqilliyini isə məhvolmadan xilas etməsəydi!*

*Uzun əsrlərdən sonra qazanılan və yaşadılan, əbədiliyə çevrilən dövlət müstəqilliyi hər birimiz üçün müqəddəs və əzizdir!*

*Varisi olduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini Prezident İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli sərəncamı ilə bu il təntənə ilə qeyd edəcəyik. Şərəfli yubileyə hazırlıq dövründə müstəqilliyin özü və sonrakı taleyi ilə bağlı müxtəlif mətbu orqanlarda gedən məqalələrin kiçik bir qismini qəzetimizdə dərc etməklə baş verənlərə yenidən diqqət çəkirik!*

*Oxumaq, bilmək və nəticə çıxarmaq üçün!*

## İSTİQLALIMIZIN İQTİSADİ TƏMƏLİ

Azərbaycan istiqlal hərəkatı, müstəqil bir dövlət həyatı qurmağa mütəvəcceh bir mücadilədir. Elani-İstiqlal Bəyannaməsinin 28 Mayıs 1918-də zikr etdigi kibi, Şərqi və Cənubi Mavərayi-Qafqasiyayı ehtiva edən bu dövlətin 3 milyon raddəsində nüfusu vardır.

Əksəriyyəti, 80 faizi türk olan nüfusun istiqlal üçün qəti bir iradəsi, mücadilə və fədakarlıqları göz önündədir. Bu millət mütləqa hürr və müstəqil yaşamağa əzm etmişdir.

Vahid və müttəhid bir vətən, o vətəndə əksəriyyəti tam təşkil edən milli məfkurə və şüuruna malik bir millət, o millətin qəti iradə və qərarı - iştə istiqlalın təməlini təşkil edən başlıca şərtlər.

Fəqət bunların xaricində daha qüvvətli bir amil dəxi vardır ki, onun olub olmaması yuxarıki şərtlər üzərində pək müəssirdir. O amil də məmləkətin iqtisadi vəziyyətidir. Azərbaycan bu nöqteyi-nəzərdən əcəba nə kibi bir çöhrə ərz etməktədir? Onun iqtisadi imkanları, ticarət balansı, ixracat və idxalatı, iqtisadi inkişaf nöqteyi-nəzərindən gələcəgi nə haldadır?...

Azərbaycanı ictimai bir vəhdət halına salan müştərək bir ərazidən maəda, bəlkə ən mühümmü, bu ərazinin iqtisadən yekvücud və zəngin olmasıdır. "Kür" və "Araz" vadisində qurulan ziraət, "Abşeron" mərkəz olmaq üzrə, "Xəzər" sahilindəki ticarət və sənaye həyatı, bu ziraət, ticarət və sənaye sahələrinin dəniz, nəhir və steplər vasitəsilə biri-birinə qolay mərbut olmalarıdır ki, Azəri cəmiyyətinin feodalizm dövründən yabancı cəmiyyətlər şəklində degil, vahid milli bir orqanizm halında meydana gəlməsinə səbəb oldu.

İqtisadi vahdət sayəsində vücuda gələn müştərək milli cəmiyyətin yaratdığı və yaşatdığı milli harsdır ki, bilaxirə milli istiqlal hərəkatının əsasını təşkil, milli şüur və milli məfkurənin yaradıcısı oldu.

Müştərək iqtisadi həyatın, milliyyətin və milli harsın təşəkkülündəki bu mühüm rolu ümumidir; bu o millətin müstəqil milli bir dövlət yaşada bilməsi üçün kafi bir dəlil degildir. Məmləkətin iqtisadi imkanı daima idxalata bir ehtiyac oyandırıyorsa, gəliri daima çıxarından az isə və büdcəsi xarici istiqrazlarla qapanıyorsa, məmləkət, coğrafi nöqteyinəzərdən, qeyri mərkəzi bir mövqe işğal ediyorsa - o zaman müstəqil dövlətin istiqbali o qədər də işıqlı degildir demək.

Bu baxışla yaxlaşarkən Azərbaycanı ən məsud bir halda görüyoruz. Elani istiqlal zamanı məmləkətin 75 faizi köylü, 25 faizi şəhər əhalisi idi. 1897 sənəsi təhriri nüfusunda Azərbaycan əhalisinin 18,5 faizi şəhərli ikən, 1917-də 25 faizi şəhərli olması 20 sənədə iqtisadi irəliləmiş olduğuna bir dəlildir.

Qafqasiya Azərbaycanının 97,297,17 mürəbbe (kvadrat) kilometroya müsavi olan ərazisinin 75 faizi əkinə müsaid, 25 faizi dağlıq, bataqlıq və s. ibarətdir ki, 1917 sənəsində nəşr olunan Qafqasiya salnaməsilə 1919 sənəsinə çıxan milli Azərbaycan Cümhuriyyətinin ziraət nəzarəti məlumatı mövcibincə elani istiqlala qədər bu ərazinin 57,7 faizi köylülərdə, 23,3 faizi xüsusi məliklərdə, 19 faizi Rusiyanın çar familyasilə Rusiya hökumətində idi.

Ziraət Azərbaycanda mühüm sahələrdən biri idi. 1910-1914 sənələrində Azərbaycanda 971.000 desyatin yer əkilmişdir ki, bütün əkinə müsaid (əlverişli) ərazinin 55,5 faizini təşkil edər. Bu ərazi üzərində əkilmiş toxum 8 milyon 120 min pud olmuş və 56 milyon 700 min pud hasilat vermişdir. Əkilən sənəlik toxum xaric edildikdən sonra məhsul Azərbaycanın ehtiyacatını ödəmədigindən xaricdən hər il 14 milyon pud buğda idxal olunuyordu. Fəqət bu vəziyyət qeyri təbii idi. Rusiya Azərbaycanı, xam malına, ərzağına və məhrüqatına (yanacağına) malik müstəqil bir iqtisad məntəqəsi yapmamaq üçün, buğda yerinə pambıq əkdiriyor və "Kür", "Araz" sahəsində süni suvarma işlərinə mane oluyordu. Bu üzdən əkilməmiş 1 milyon 500 min desyatin ərazi boş duruyordu. Əgər suvarılan ərazinin 30 faizi buğda üçün təxsis edilsəydi, o zaman Azərbaycan qonşularını dəxi doyuracaq bir ərzağa malik olurdu. 1917-1920 sənələrinin təcrübələri Azərbaycanın buna müqtədir olduğunu, kəndi ərzağımızla yaşaya biləcəgimizdən maəda, buğda ixracatı dəxi yapa biləcəgimizi göstərdi.

1912-1914 sənələrində Azərbaycanda 94.500 desyatin pambıq əkilmiş və sənədə 4 milyon 725 min pud pambıq hasil olmuşdur. Pambıq ərazisinin suvarılma sayəsində 400 min desyatinə qədər arta biləcəgi təxmin olunmaqdadır.

Hərbi-ümumiyə qədər Azərbaycanda 36.762 desyatin ərazi hər il üzümçülügə təxsis olunuyor və ildə 1 milyon 470 min pud üzüm hasil oluyordu. 36 min 165 desyatin ərazi işğal edən meyvəçilik ildə 3 milyon pud meyvə veriyordu. Hər il hasil olan tütün 54.600 pud; 4 milyon 200 min baş heyvandan ildə:

253 min pud yun
90 min dəri (at və sığır)
200 min qoyun və keçi dərisi
50 min müxtəlif dərilər hasil oluyordu.

1917 sənəsi salnaməsinin məlumatına görə Azərbaycanda ildə 495 min pud təmizlənmiş ipək, 27 min 500 arı pətəyindən 95 min pud bal, 2 min pud mumu hasil oluyordu.

Bunlardan maəda Azərbaycanda hər il 750 min pud biyan kökü, 500 pud qırmız bücəgi toplanmışdır. "Xəzər" və "Kür" sahillərində balıqçılıqla məşğul olunuyor. Hərbi ümumiyə qədər "Kür" mənsəbindəki 27 balıq müəssisəsi 17 milyon 135 min manat (rublə) qiymətində 4 milyon 500 min pud balıq hasil etmişdir. Balıq yağı və Azərbaycanın Bakı havyarı (kürüsü) hər yerdə mərufdur.

* * *

Ziraətdən maəda Azərbaycanda mədəniyyət və sənaye dəxi çox irəliləmişdir. Azərbaycan petrolca dünyanın ən zəngin bir qismi olduğu kibi burada bakir (mis), dəmir, zəy, duz, barıt, daş kömür, dəyirman daşları, inşaat daşları, mərmər, təbaşir, mədən suları və sihhi çamurlar dəxi vardır. 1907-1914 sənəsində Bakıda çıxarılan petrolun sənəlik hasilatı 470 milyon pud miqdarında olmuşdur. Cahan dairəsində Azərbaycan Amerikadan sonra, petrol istehsalında 2-ci yer işğal ediyor. 1928 sənəsinin hasilatı isə 7 milyon 500 min tondan ibarət idi. Hərbi-ümumidən əvvəl sənədə:

| | |
|---|---|
| 165.000 | pud mis |
| 150.000 | " dəmir |
| 10.000.000 | " zəy (şap) |
| 500.000 | "barıt |
| 550.000 | "duz hasil oluyordu. |

1927 sənəsinin sovet məlumatına görə Azərbaycanın Çıragıdzor bakir mədəni sənədə 70.000 ton mis vermişdir. Azərbaycan geoloji komitəsinin yapdığı təhqiqat nəticəsində 18.000.000.000 pud zəy kəşf olunmuşdur. Bu surətlə Azərbaycan İtaliyadan sonra, cahan dairəsində 2-ci bir yer işğal ediyor. Azərbaycan yun və maldarlıq sayəsində xalçaçılıqla da mühüm bir yer tutuyor.

**1916 sənəsində Azərbaycanın sənayi vəziyyəti böylə idi:**

| Məntəqələr | Fabrikaların miqdarı | İstehsal qiyməti | İşçilərin miqdarı |
|---|---|---|---|
| Bakıda | 550 | 1.983.210.000 | 4320 |
| Bakı vilayətində | 2300 | 6.840.000 | 3520 |
| Gəncə vilayəti | 900 | 6.370.000 | 9938 |
| Zaqatala | 20 | 680.000 | 100 |
| Naxçıvan | 1200 | 1.900.000 | 2230 |
| məcmuu | 4970 | 1.999.000.000 | 59.100 |

Azərbaycan coğrafi nöqteyi-nəzərindən məzkəzi bir vəziyyət işğal ediyor. Yəni Şimali və ya Cənubi qütblərə yaxın məmləkətlər kibi degil, dörd bir tərəfdən həyat və iqtisadi hərəkata malik məmləkətlərlə mühatdır. Əlavə olaraq Şərqi Avropa ilə Asiya arasında tarixi ticarət yolu üzərində bulunmaqdadır. Xəzər dənizi vasitəsilə Azərbaycan Türkistan, Şimalı Qafqasiya, Edil Boyu, Rusiya və İran ilə qolay ticarət münakilatı yapa bilməkdə, Bakı-Batum və Bakı-Rostov dəmir yolları vasitəsilə Türkistan və İran ilə Avropa arasında bir tranzit yolu rolunu oynamaqdadır. Bu surətlə Azərbaycan Avropaya sövq edilən Şərq malları ilə Avropadan İrana və Türkistana göndərilən malların bir yolu və deposu rolunu ifa etməkdədir.

Müharibədən əvvəl Azərbaycan təriqilə İrandan Avropaya 60 milyon manatlıq mal çıxarılıyor, əvəzində hər il 95 milyon manatlıq mal gətiriliyordu.

Bu tranzit yolunun verdigi faydalar aşikardır. Digər cəhətdən Azərbaycan bu qolay irtibat və münasibat vasitələrindən istifadə edərək kəndi malını da Türkistana, İrana, Avropaya, Ukraynaya və Rusiyaya sövq ediyordu.

**Azərbaycanın hərbdən əvvəlki sənəlik ixracatı şu şəkildə idi:**

| | | | | | |
|---|---|---|---|---|---|
| 230.000.000 | pud | qara neft | } - | 275.000.000 | manat |
| 145.000.000 | " | neft məhsulatı | | | |
| 2.500.000 | " | çiyit (pambıq toxumu) | - | 2.500.000 | " |
| 1.000.000 | " | pambıq | - | 13.000.000 | " |
| 2.000.000 | kova | şarap | - | 4.000.000 | " |
| 200.000 | pud | quru meyvə | - | 500.000 | " |
| 250.000 | ədəd | dəri | - | 2.000.000 | " |
| 4.000.000 | pud | balıq və hasilatı | - | 3.000.000 | " |
| 750.000 | " | biyan kökü | - | 500.000 | " |
| 100.000 | " | yun | - | 1.000.000 | " |
| - | | xalı | - | 3.000.000 | " |
| 200.000 | " | ipək | - | 3.000.000 | " |
| - | " | bakır (mis) | - | 2.500.000 | " |
| 300.000 | " | duz | - | 100.000 | " |
| | | Məcmuu | | 317.100.000 | |

Bunun müqabilində şəkər, manufaktura, çay, buğda, sənaye-fabrika materyalları olmaq üzrə ildə Azərbaycana 91 milyon manatlıq mal gətiriliyordu. Bu surətlə ixracat 226 milyon manat idxalatdan fəzlə oluyordu.

Unutmamalı ki, 10 milyon manatlıq buğda buradan atılmalıdır. Sonra məmləkət yuna, pambığa, ipəyə malik olduğundan və petrol kibi yanacaq varlığı sayəsində Azərbaycanda toxuma sənayei dəxi inkişaf ediyordu. Demək idxalatımızın ildən-ilə azalacağına ümid çoxdur...

* * *

Elani-istiqlal qarşısında Azərbaycanın xəzinəyə təmin etdigi vergi 165 milyon manat miqdarında idi. Bu məbləğin ildən-ilə artacağına məmləkətin iqtisadi inkişafına mütənasibən dövlət gəlirinin 165 milyon manata təcavüz edəcəginə ehtimal çoxdur.

Bu 165 milyon altun manat (rublə) əhalinin miqdarına təqsim edildigi zaman hər vətəndaşa 55 altun manat isabət edərdi.

**Milli Azərbaycan Cümhuriyyətinin büdcəsi 55 milyon altun manat qədərində olduğunu nəzəri-diqqətə alacaq olursaq, o zaman mədəni inkişaf üçün Azərbaycanın ən parlaq istiqbal ərz ettigi aşikar olur...**

***M.B. (Mirzə Bala)***
***"Odlu-Yurd", 28 Mayıs 1929, № 4***

Mütəvəcceh - istiqamətlənən
Raddə - təxminən
Təhriri - rəsmi sənədi
Müsaid - əlverişli, münasib
Havyar - kürü
Məhrüqat - yanacaq
Bakır - mis
Mühat - əhatə olunmuş
Zek - zəy
Sihhi - sağlamlıq, tibbi

**P.S. Məqaləni redaksiyaya professor Şirməmməd Hüseynov təqdim edib**

## Gəncədə II Milli Sənaye Mühəndisliyi Forumu keçirilmişdir



Gəncədə Azərbaycan Texnologiya Universiteti (UTECA), Lean Consultinq şirkəti və Bakı Mühəndislik Universitetinin (BMU) birgə təşkilatçılığı ilə II Milli Sənaye Mühəndisliyi Forumu keçirilmişdir.

Ölkəmizin bir çox aparıcı sənaye müəssisələri rəhbərlərinin, elm və ali təhsil ocaqları nümayəndələrinin, eləcə də xarici mütəxəssislərin iştirakı ilə keçirilən forumda sözügedən sahənin aktual problemləri müzakirə olunmuş, milli sənayemiz üçün kadr hazırlığı prosesinin təkmilləşdirilməsi yolları araşdırılmışdır.

Forum iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Gəncənin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuşlar. "RAMADA" plaza hotelinin iclas salonunda keçirilən forum Dövlət himninin səslənməsi ilə başlamışdır. "Heydər Əliyev və Azərbaycan sənayesi" adlı videoçarxın nümayişindən sonra Azərbaycan Texnologiya Universitetinin rektoru (UTECA), professor Akif Süleymanov II Milli Sənaye Mühəndisliyi Forumunu açaraq diqqətə çatdırıb ki, I Forum paytaxt Bakıda keçirilib. II Forumun Azərbaycanın ikinci ən böyük regional mərkəzində - Gəncədə keçirilməsi heç də təsadüfi deyil. Belə ki, bu gün ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişaf etdirilməsində regionların rolu və öhdəlikləri kifayət qədər böyükdür. Həm Gəncə şəhəri, həm də onun ətraf regionunda strateji cəhətdən əhəmiyyət daşıyan sənaye müəssisələrinin sayı artmaqda və fəaliyyəti gücləndirilməkdədir. UTECA tərəfindən yaradılan universitet-sənaye əlaqələrinin ən effektiv modeli həm sənaye müəssisələrinin işinin səmərəliliyini artırmağa, həm də ali təhsil müəssisələrində kadr hazırlığının keyfiyyətini yüksəltməyə xidmət edir.

Forumun mövzusu və əhəmiyyəti haqda danışan rektor Akif Süleymanov qeyd etmişdir ki, Azərbaycanda sənayenin intibahı və köklü inkişafı məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun sovet Azərbaycanının rəhbərliyinə gəlməsi ilə respublikamızda sənayenin inkişafında yeni mərhələ başladı. Aparılan məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan sənayesi SSRİ-də ən qabaqcıl mövqelərdən birinə yiyələndi. Neft-kimya sənayesi modernləşdirildi, yeni cihazqayırma, maşınqayırma və metallurgiya kompleksləri və onlarla digər istehsalat sahələri istifadəyə verildi. Heydər Əliyev 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəldikdən sonra da ölkə iqtisadiyyatının dirçəldilməsi ilə bağlı tədbirlər həyata keçirilməyə başladı. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan sənayesinin inkişaf konsepsiyası Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə inamla davam etdirildi və iqtisadiyyatda sənaye sektorunun inkişafı təmin olundu.

Forumda Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev, İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədov, AMEA-nın Yüksək Texnologiyalar Parkının direktoru Vüqar Babayev və bir sıra aparıcı şirkətlərin nümayəndələri mövzu ilə əlaqədar məruzələrlə çıxış etmişdir. Sonra qaldırılan məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

Forumun keçirildiyi müddətdə UTECA ilə Azərbaycan Sahibkarlar Konfederasiyası, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi (KOSİA) və AMEA-nın Yüksək Texnologiyalar Parkı arasında əməkdaşlıq memorandumu da imzalanmışdır.

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədov demişdir ki, Azərbaycanda sənaye potensialının yüksəldilməsi üçün elmi-innovativ biznes ideyalarının istehsalata tətbiqi çox vacibdir. Sahibkarlığın inkişafı üçün daha əlverişli biznes mühiti yaratmağın ilkin şərti kiçik və orta sahibkarlığın iqtisadiyyatda rolunun və rəqabətqabiliyyətliliyinin artırılmasıdır. Rəhbərlik etdiyi agentliyin bu istiqamətdə silsilə iş aparacağını qeyd edən Orxan Məmmədov elm və ali təhsil ocaqları ilə əməkdaşlığın vacibliyini qeyd etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Alimlər Astarada toplaşdılar



Azərbaycan Milli Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Lənkəran Regional Elm Mərkəzi, Astara Rayon İcra Hakimiyyəti və Kənd Təsərrüfatı İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən seminar "Çay, çəltik və sitrus bitkilərinin mütərəqqi becərmə texnologiyaları" mövzusuna həsr olunmuşdur.

Astara RİH-in başçısı Q.Ağayev, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Ə.Quliyev, AMEA Lənkəran REM-nin direktoru, professer F.Quliyev, AMEA TAİ "Üzvi gübrələr" laboratoriyasının müdiri, əməkdar elm xadimi, professor P.Zamanov, AMEA TAİ "Üzvi gübrələr" laboratoriyasının aparıcı elmi işçisi, professor Ə.Əlizadənin iştirak etdikləri tədbirdə Astara və ətraf rayonlardan çay, çəltik və sitrusçuluqla məşğul olan fermerlər iştirak etmişlər.

Tədbiri açan Astara RİH-in başçısı Qəzənfər Ağayev ölkəmizdə aprar sahənin inkişafı istiqamətində aparılan siyasətdən, kənd təsərrüfatının inkişafı ilə əlaqədar görülən tədbirlərin əhəmiyyətindən danışmışdır. Bildirmişdir ki, Prezident İlham Əliyev tərəfindən son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar mühüm qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmişdir. Prezident 2017-ci il sentyabrın 3-də Lənkəran şəhərində çayçılıq, çəltikçilik və sitrusçuluğun inkişafı ilə əlaqədar keçirdiyi respublika müşavirəsində bu sahələrin dirçəldilməsinin vacibliyini qeyd etmiş, tapşırıqlarını vermişdir: "Dövlət başçısı tərəfindən qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar rayonun fermer təsərrüfatlarının başçıları, istehsal, emal müəssisələrində çalışan sahibkarların iştirakı ilə rayonda işgüzar görüş keçirilmişdir. Prezidentin tövsiyə və tapşırıqları diqqətə çatdırılmış, kənd təsərrüfatının rayonumuz üçün xarakterik sahələrinin inkişaf yolları barədə fikir mübadiləsi aparılmışdır. Nəticədə qısa müddətdə 1500 hektara yaxın əkinəyararlı torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir".

Seminarda çıxış edən professorlar - Ə.Quliyev, F.Quliyev, P.Zamanov, Ə.Əlizadə kənd təsərrüfatının inkişafında elmin rolu, Lənkəran-Astara zonasında çayçılıq və çəltikçilikdə üzvi gübrələrdən istifadənin səmərəliliyi, torpaqlardan müasir texnologiyalar əsasında səmərəli istifadə üsulları, çəltikçilikdə yeni texnologiyadan istifadə qaydaları barədə fermer və sahibkarlara geniş məlumat vermişlər. Tədbir müzakirələrlə başa çatmışdır.

***"Azərbaycan"***

## 95 yaşın xatirələri...

**Müsahibim çox danışmağı sevmir. Deyir ki, bu günlərdə 95 yaşım tamam olur. "Müharibənin ağrılarını, acılarını, ən çətin günlərini görmüşəm. Bizim nəsil o illəri dözümün hesabına yaşadı. O qədər güllə yaraları almışam ki...**



Amma yaşamaq cəhdi məni bu günlərə qədər qorudu. Döyüş yolum 223-cü diviziyadan başlayıb. Düz Berlinə qədər ağır döyüş yolu keçmişəm. Bəzən sərt, soyuq meşələrdə gecələyirdik. Amma bircə niyyətimiz vardı: qalib gəlmək, düşmənə layiqli cavab verməк!

Hələ də o günləri xatırlayanda iradəmizə, inamımıza məəttəl qalıram. Müharibəyə Zərdabın kiçik bir kəndindən - Əlvənddən yollanmışam. Elə ən çox o yerlər üçün darıxırdım. Məni böyüdən, ərsəyə gətirən adamları tez-tez xatırlayırdım. Anamın göndərdiyi isti yun corabları alanda o qədər sevinirdim ki...

Yaxşı xatırlayıram, döyüşlərin birində qolumdan yaralanmışdım. Döyüş dostlarım məni çətinliklə də olsa, təhlükəsiz yerə çatdırdılar. Sarğı materiallarımız da tükənmişdi. Onda ağacların yarpaqlarından faydalanmalı olduq".

Nemət Bayramov yaşının bu çağında həmin günləri bir kino lenti kimi gözlərinin önündən keçirir. Deyir ki, doğrusu, bugünə qədər yaşamağıma ümidim az idi. "Hər gün o qədər təhlükə ilə üz-üzə qalırdıq ki... Bəzən hər dəqiqəmiz ölümə bərabər olurdu. Amma qətiyyən ruhdan düşmürdük. Əksinə, itkilərimizin əvəzini çıxmaq üçün yeni qüvvə ilə döyüşlərə gedirdik. Biz qələbəyə inanırdıq. İnanırdıq ki, düşmənin texniki imkanları nə qədər güclü olsa da, mənəvi dayaqları xeyli zəifdir. Bizdə olan birlik çox güclü idi.

Ən çox yadımda qalan Krım döyüşləridir. Müharibənin ən qaynar dövründə - 1943-1944-cü illərdə 423-cü batalyonun tərkibində vuruşurduq. Qara dənizdə o qədər çətin döyüş əməliyyatları keçirmişik ki... Belə əməliyyatların birində düşmənin böyük bir silah-sursat anbarını ələ keçirdik. Ölüm-dirim mübarizəsində yalnız irəliyə doğru gedirdik. Qara dənizdə döyüş gəmimiz bir neçə yerdən zədələnsə də, sona qədər mübarizəni dayandırmadıq. Ona görə də nəticə bizim xeyrimizə qurtardı".

Nemət baba danışdıqca bir qədər kövrəlirdi. Geriyə boylanmaq, o illəri xatırlamaq nə qədər çətin olsa da, sorğularımı cavabsız qoymurdu. "Vallah, ay oğul, o günləri xatırlamaq istəmirəm. Bəzən hər günü sonuncu döyüş əməliyyatı sanırdıq. Sağ qalmağımıza o qədər də ümidimiz yox idi. Amma bizi yaşadan böyük inam və ümid vardı. Bir də ki, içimizdə vətən sevgisi yaşayırdı...

Müharibədən sonra nələr qazanmışamsa, bütün bunlar Tanrı payı, halal qismətimdir. Bu gün yeddi övladın atası, 16 nəvənin babasıyam, nəticələrimin də sayı çoxdur. Onların hər biri ilə fəxr edir, öyünürəm. Xoş soraqlarını alanda o qədər sevinirəm ki... Çoxu əsgəri xidmətini başa çatdırıb. Hərəsi bir işin qulpundan yapışıb. Mən özüm də müharibədən sonra təhsil aldım. Ali təhsilli iqtisadçıyam. Uzun illər müxtəlif sahələrdə çalışmışam".

Nemət baba deyir ki, məni gümrah, sağlam saxlayan övladlarımın xoş sorağı, qazandıqları uğurlardır. "Bir də ki, dövlətimizin bizə qədərincə göstərdiyi qayğıdır. Hazırda yüksək təqaüd alıram, müalicələrim dövlət hesabına aparılır. Dünyanın müxtəlif yerlərində istirahətdə olmuşam. Müharibədən sonra xoş günlərim çox olub. Bu gün müharibə veteranı kimi üstünlüklərim çoxdur. Hər yerdə bizə diqqət və qayğı göstərirlər".

Nemət baba yeni nəslin onlara münasibətindən də razıdır. Tez-tez məktəblərə, bağçalara dəvət alır, müxtəlif tədbirlərdə iştirak edir. Bütün bunlar da ona mənəvi ruh verir. Deyir ki, uşaqların suallarına cavab verdikcə bir qədər gümrahlaşıram. Əslində günümün çoxunu onlara sərf edirəm...

"Məni gümrah saxlayan bir məşğuliyyətim də var. Yardımçı təsərrüfatımızda hər gün saatlarla çalışıram. Əkib-biçirəm, ağaclara, güllərə qulluq edirəm. Bu işdə nəvələrim də mənə yardımçı olur. Bəlkə də məni yaşadan belə əyləncələrdir.

Hər il eyni gündə - 9 mayda Böyük Vətən müharibəsində qələbəmizi qeyd etmək üçün yaşıdlarımla rayon mərkəzinə toplaşırıq. Bizə hörmətlə, nəvazişlə yanaşırlar. Qiymətli hədiyyələrlə mükafatlandırırlar. Hiss edirik ki, heç vaxt, heç vədə unudulmamışıq. Belə olanda yaşamaq da asanlaşır, sabaha güclü inam yaranır. Əminəm ki, biz bu gün üzləşdiyimiz təhlükəni də sovuşduracağıq. Erməni quldurlarının azğın niyyətləri qətiyyən baş tutmayacaq. Dövlətimizin, güclü ordumuzun qətiyyəti bizim qələbəmizə tam təminat yaradacaq. Onda həmin günü də qələbə bayramı kimi qeyd edəcək, bir-birimizə yeni uğurlaq arzulayacağıq..."

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***




# Oxucu məktubları



Yurd yeri

## Kəndimiz simasını dəyişir

Ölkə Prezidentinin təşəbbüsü ilə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası kənddə yaşayan insanların da həyat tərzini dəyişir, onlara sevinc və rahatlıq gətirir. Götürək elə bizim Bağbanlar kəndini.

Bu kənd Biləsuvar rayonunun mərkəzindən 6-7 kilometrlik məsafədə yerləşir. Kənd başdan-başa bağ-bağat içindədir. Sakinləri işgüzar, zəhmətsevər və çalışqandırlar. Əkinçiliklə, maldarlıqla məşğul olurlar. Kənddə mindən çox təsərrüfat, 4 min 650 nəfər əhali var. Sakinlərə mədəniyyət evi, kitabxana, həkim məntəqəsi, poçt şöbəsi, 300 yerlik ATS, neçə-neçə ticarət və iaşə obyekti xidmət göstərir.

Kəndimiz qazlaşdırılmışdır. Hər bir evdə "mavi alov" şölələnir. Bir neçə il əvvəl "modul" tipli su xəttinin istifadəyə verilməsi əhalinin hədsiz sevincinə səbəb olmuşdur. Elektrik enerjisi fasiləsiz verilir. Kəndarası yollar abadlaşdırılmışdır. Bu günlərdə isə kəndimizi rayon mərkəzi ilə birləşdirən yolun 2,5 kilometrlik hissəsinə asfalt döşənməsi gediş-gəlişi daha da asanlaşdırmışdır. Dediyim odur ki, indi bu kənddə yaşamaq da xoşdur, işləmək də. Kəndimizin bu günü gözəldir. İnanırıq ki, onun sabahı bundan da gözəl olacaq.

Bilirik ki, bu rahatlığı bizə bəxş edən müdrik dövlət başçısı cənab İlham Əliyevdir. Elə buna görə də aprel ayının 11-də keçirilən prezident seçkilərində yekdilliklə ona səs verdik.

***Araz CƏFƏROV,***
***Biləsuvar rayonu, Bağbanlar kənd tam orta məktəbinin müəllimi***

Quruculuq

## Körpələrin də üzü gülür

Hər bir ata, ana istəyir ki, övladı sağlam böyüsün, yaxşı tərbiyə alıb vətənin layiqli vətəndaşına çevrilsin. Ölkəmizdə bu məsələyə dövlət səviyyəsində böyük qayğı göstərilir.

Hər il neçə-neçə uşaq tərbiyə müəssisəsi, məktəb və digər təhsil ocaqları tikilib istifadəyə verilir. Bunu Gəncənin timsalında da görmək olar. Təkcə son iki ildə şəhərdə 10 uşaq bağçası əsaslı təmir edilərək istifadəyə verilib. Bu yaxınlarda onların sırasına biri də əlavə olunub. Belə ki, Yeni Gəncə qəsəbəsindəki 44 saylı körpələr evi-uşaq bağçasında əsaslı təmir işləri yüksək səviyyədə, zövqlə başa çatdırılıb.

Mənim də övladım bu bağçada tərbiyə alır. 240 yerlik körpələr evi-uşaq bağçası indi



hər kəsin üzünə gülür. Hər tərəf tərtəmiz və gül-çiçəkdir. Uşaqlar da yaradılan şəraitdən zövq alırlar.

***Vüsalə ABDULLAYEVA,***
***Gəncə şəhəri, Yeni Gəncə qəsəbəsinin sakini***

Sağlamlıq

## Tək mən demirəm...

Hörmətli redaksiya!
Qədər-qismət elə gətirdi ki, mənim də yolum Bakı şəhəri Xətai rayonunun Seyid Əzim Şirvani küçəsində fəaliyyət göstərən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez-Ortopedik Mərkəzinə düşdü.

Burada elə qayğının və mehribanlığın şahidi oldum ki, sizə məktub yazıb bu təşkilata rəhbərlik edən Asif Məcidova, həkim Vəli Əliyevə, protez ustaları Ağa Həsənova, Sayəddin Mehdiyevə və Razinə (soyadını unutmuşam) qəzetiniz vasitəsilə minnətdarlıq etməyi özümə borc bildim. Əvvəlcə Vəli Əliyevin qəbulunda oldum. Məni diqqətlə, hərtərəfli müayinə edib sənədlərimi hazırladı. Sözarası onu da dedi ki, özlərində narahatlıq hiss edənləri, buradakı xəstəxanada yatızdırır, üç gün, beş gün müalicə edib sağalandan sonra evə buraxırlar. Həkim müayinəni qurtarıb protez üçün ölçülər götürüb dedi ki, iki həftədən sonra yoxlamaya gələrsən. Elə də etdim. Protez hazır olanda gördüm ki, ustalar çox səliqəli iş görüblər. İndi rahat gəzirəm.

Təkcə mən yox, burada müalicə kursu keçən hər bir şəxs həkimlərin öz işlərinə necə məsuliyyətlə yanaşmalarından, sağlamlıqlarını itirmiş insanlara necə böyük qayğı və diqqət göstərdiklərini təsdiq edərlər.

Özü də burada müalicə də, əlillərin protezlə təminatı da dövlət hesabınadır. Dediyim odur ki, bu mərkəzdə mən dövlətin əlillərə hərtərəfli qayğısını gördüm.

***Ümüdşah AĞABALAYEV***

Tarixi abidələr

## 166 yaşlı pravoslav kilsəsi



Cəlilabad rayonunun Göytəpə şəhərində yerləşən pravoslav kilsəsinin tarixi XIX əsrin ortalarına gedib çıxır. Türkmənçay müqaviləsindən sonra Şimali Azərbaycan torpaqlarına, o cümlədən Cəlilabad rayonuna köçürülmüş xristian inanclı ruslar ibadət etməkdən ötrü burada əvvəlcə kiçik bir bina tikiblər.

Amma həmin tikili rusların kütləvi ibadətləri üçün darısqal olduğundan cənub bölgəsində analoqu olmayan bu kilsənin inşa edilməsi qərara alınıb. Kilsənin Azərbaycan ərazisində inşa edilməsi ikinci rus-İran müharibəsi ilə əlaqədardır. 1826-1828-ci illərdəki müharibədə İran ruslara müqavimət göstərə bilməyərək məğlub olur, rus qoşunları bu əraziləri ələ keçirirlər. İranla bağlanmış Türkmənçay müqaviləsinin əsas şərtlərindən biri rusların işğal etdikləri ərazidə məskən salmaq imkanlarını əldə etməkdən ibarət idi. Beləliklə, 1829-cu ildən başlayaraq ruslar Azərbaycanda birinci olaraq Cəlilabad ərazisində məskunlaşmağa başlayıblar. Onlara "azad gəlmələr" adı verilmişdi. Çünki dövlət xəsinəsinə pul köçürmək yolu ilə azadlıq əldə etmişdilər və istədikləri yerdə yaşaya bilərdilər. Cəlilabadın Privolnoye kəndinin də adı rus dilində "azad gəlmələr" mənasını verir.

Tikintisinə 1848-ci ildə başlanan kilsə 4 ildən sonra istifadəyə verilib. Amma tikilinin çöl divarında asılmış lövhədə 1878-ci ildə istifadəyə verildiyi göstərilib. Altı günbəzdən ibarət olan bu qədim memarlıq abidəsinin tikinti işləri əsasən yerli memarlar tərəfindən aparılıb. Odur ki, kilsənin pəncərə və divarlarında Azərbaycanın milli memarlıq üslubunun çalarları açıq-aşkar nəzərə çarpır.

Qeyd edək ki, ötən əsrin 30-cu illərində Sovet İttifaqı Kommunist Partiyasının ateizm ideologiyası bir sıra dini abidələrlə yanaşı, Göytəpə şəhərindəki kilsənin də üzərindən qara yellərin əsməsinə səbəb olub. İnsanlara öz dini mərasimlərini yerinə yetirmək qadağan edildiyindən, bu əzəmətli memarlıq abidəsinin qapıları bağlanıb.

1990-cı illərin əvvəllərində Cəlilabad rayonunda yaşayan rusların əksər hissəsinin öz qədim dədə-baba torpaqlarına köçməsi və Göytəpədəki kilsənin dindarlar tərəfindən istifadə olunmaması səbəbindən bu tarixi abidə Mədəniyyət Nazirliyinin sərəncamına verilib.

Yerli əhəmiyyətli abidə kimi 4177 saylı inventarla rəsmi qeydiyyata alınan kilsənin birinci mərtəbəsində hazırda Göytəpə şəhər kitabxanası yerləşir. Təqdirəlayiq haldır ki, mədəniyyət işçiləri tərəfindən bu tarixi abidə göz bəbəyi kimi qorunur. Bununla belə, tikildiyi vaxtdan cəmi bir dəfə təmir olunan Göytəpə kilsəsinin bərpaya ehtiyacı var.

***Ağaddin BABAYEV,***
***yazıçı-jurnalist***

Abadlıq

## Daha 8 kəndə gediş-gəliş asanlaşacaq

"Yol abadlıqdır", "Yol mədəniyyətdir", "Yol rahatlıqdır" sözlərini əvvəllər də işlədirdik, indi də işlədirik. Bir vaxtlar həmin sözlər əksər hallarda şüar kimi səslənərdisə, görülən çox böyük işlər sayəsində reallığa çevrilib. Elə bunun nəticəsidir ki, ölkə vətəndaşları, respublikamıza səyahətə çıxan turistlər, qonaqlar bu şəhərdən o şəhərə, o şəhərdən bu şəhərə getməyə əvvəlki qədər vaxt itirmir, mənzilbaşına daha rahat, daha tez çatırlar.

Artıq neçə müddətdir ki, dövlət vəsaiti hesabına kənd yolları da abadlaşır.

Bunu Qəbələ rayonunun timsalında da görmək olar. Belə ki, Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx yaşayış məntəqələrini əhatə edən avtomobil yolu yenidən qurulur. Səkkiz yaşayış məntəqəsini əhatə edən bu yolda işlər başa çatdıqdan sonra 10 min əhalinin gediş-gəlişi asanlaşacaq, bu ərazidə yaşayanlar respublika əhəmiyyətli Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yoluna daha rahat çıxış əldə edəcəklər. Biz də yolun tikintisində çalışanlara "yorulmayasınız, əliniz qolunuz var olsun" deyirik.

***Cəbrayıl ABBASOV,***
***Qəbələ rayonu, Mıxlıqovaq kənd sakini, müəllim***




*Foto A.MƏMMƏDOVUNDUR*

Təklif

## Məlumat lövhəsinə ehtiyac var



Bizim şəhərdə əhalinin yarıdan çoxu ictimai nəqliyyatdan istifadə edir. Hətta yaxından tanıdığım adamların əksəri şəxsi maşınları ola-ola işə ictimai nəqliyyatla gedib-gəlməyə üstünlük verirlər. Səbəb bu nəqliyyat növünün yaxşı xidmət göstərməsidir. Özü də elə bir ərazi yoxdur ki, oraya avtobuslar işləməsin. Son iki ildə xəttə buraxılan nəqliyyatın hamısı daha rahat, dayanacaqlar müasirdir.

Amma dayanacaqlarda marşrutların hərəkəti ilə bağlı heç bir məlumat yoxdur. Doğrudur, şəhər əhalisi hansı marşrutun hara getdiyini bilir. Amma şəhərimizə gələn qonaqlar, nabələd adamlar ictimai nəqliyyatdan istifadə etməkdə çətinlik çəkirlər. Bu çatışmazlığı aradan qaldırmaq üçün dayanacaqlarda hərəkətin istiqamətini və vaxtını göstərən məlumat lövhələri vurulsa, yaxşı olardı.

***Seymur ABBASOV,***
***Sumqayıt şəhəri***

Peşə təhsili

## Müəllim tövsiyəsi

Respublikamızın iqtisadiyyatı inkişaf edib şaxələndikcə peşə ixtisaslı kadrlara ehtiyac da artır. Yaşadığım Şəmkir rayonunda da yeni açılan istehsalat sahələri çoxdur. Tez-tez eşidirik ki, həmin müəssisələrə müxtəlif peşələr üzrə işçilər tələb olunur.

Mən də orta məktəbin 9-cu sinfini bitirəndə elektrik peşəsinə yiyələnmək qərarına gəldim. Bu məqsədlə sənədlərimi rayondakı texniki peşə liseyinə verdim. Artıq iki ildir ki, burada təhsil alıram. Liseydə traktorçu, xalça toxuculuğu, avtomobil çilingəri, rabitə texnologiyaları üzrə də kadrlar hazırlanır. Onu da deyim ki, burada gənclərin seçdikləri peşələrə yiyələnmələri üçün hər cür şərait var. Bu günlərdə liseydə sənaye müəssisələrinin nümayəndələri ilə görüş keçirildi. Görüşdə müxtəlif peşələrə, həm də çox sayda iş təklif edildi.

Bizə burada dərs deyən, peşə öyrədən müəllimlər deyirlər ki, seçdiyiniz ixtisasa dərindən yiyələnin. Buranı qurtarandan sonra hansı təşkilata üz tutsanız, sizin qabiliyyətinizi yoxlayacaqlar. Çalışın ki, peşələrə mükəmməl yiyələnin. Biz də müəllimlərin bi tövsiyələrinə əməl etməyə çalışırıq.

***Nicat ŞIXƏLİYEV,***
***Şəmkir rayonu***

Çağırış

## Xoş təəssüratlara kölgə salmayaq

Dövlət tərəfindən Mingəçevir şəhərinin inkişafı üçün nə lazımdırsa edilir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, cari il fevral ayının 27-də yenidənqurmadan sonra Mingəçevir Su Elektrik Stansiyası, şəhərin su təchizatı sistemi, Mingəçevir elektrik paylayıcı şəbəkəsi, Avtomatik idarəetmə və nəzarət mərkəzi, "Mingəçevir Tekstil" MMC-nin iplik istehsal üzrə iki müəssisəsi, "ASAN həyat" kompleksi istifadəyə verildi. Özü də bunların hamısında dövlət başçısı iştirak etdi.

Sosial sahədə də böyük işlər görülür. Bununla da bağlı xeyli misal çəkmək olar. Məsələn, 430 çarpayılıq mərkəzi şəhər xəstəxanası əsaslı şəkildə təmir edilmiş, Kür Olimpiya Avarçəkmə bazası yenidən qurulmuş, ictimai binalar, mədəniyyət mərkəzləri, şahmat, gənclər mərkəzləri istifadəyə verilmişdir. Şəhərdə turizmin inkişafı ilə bağlı yeni hotellər açılır.

Mingəçevirdə sahibkarlara da əlverişli şərait yaradılmışdır. Amma sahibkarların heç də hamısı yaradılan şəraiti düzgün qiymətləndirmirlər. Bu, ticarət obyektlərində, mağazalarda özünü daha çox büruzə verir. Elə mağazalar var ki, orada çalışanlar barmaqlarını dilləri ilə yaşlayıb pul sayır, polietilen torba açır, qablaşdırılmamış ərzaq məhsullarını əlcəkdən, tutacaqlardan istifadə etmədən götürüb alıcıları narazı salırlar. Belə halların qarşısını almaq üçün yaxşı olardı ki, qida sektorunda çalışan işçilər və satıcılar mütəmadi olaraq tibbi müayinələrdən keçsinlər. Belədə sanitar-gigiyenik qaydalar da pozulmaz.

Axtarsanız, öz maraqları naminə insanları müqaviləsiz işlədib vergilərdən yayınmağa çalışanlara da rast gələrsiniz. Belələri unudurlar ki, işəgötürən vəzifəsini layiqincə yerinə yetirmədiyi təqdirdə bu gün olmasa da, sabah İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb edilib böyük məbləğdə cərimələnə bilərlər.

Unutmayaq ki, mağazaların xidmətindən təkcə şəhər sakinləri yox, qonaqlar və turistlər də istifadə edirlər. Yəqin ki, onlar da bu qüsurları görür, üzə vurmasalar da, daxilən təəssüf hissi keçirirlər. Axı onlar şəhərimizin gözəlliyindən, təmiz ab-havasından zövq alır, yeri düşəndə qonaqpərvərliyimizdən ağızdolusu danışırlar. Gəlin elə edək ki, xoş təəssüratlara kölgə düşməsin.

***İlahə İSMAYILOVA,***
***Mingəçevir şəhər sakini***

Təbiət və biz

## Əkilən hər ağac yaşıllıq, təmiz hava deməkdir

Şabranda Quba, Qusar, Xaçmaz rayonlarının ərazilərinə nisbətdə yaşıllıqlar azdır. Lakin son bir neçə ildə rayonda bu çatışmazlığı aradan qaldırmaq üçün minlərlə ağac əkilmişdir.

Abadlıq-quruculuq işləri daim, yaz-payız aylarında isə ağacəkmə kampaniyaları davam etdirilir. Yaşıllıq zolaqlarında təzə parklar salınır, istirahət mərkəzləri fəaliyyət göstərir.





Bağlara, xiyabanlara ağaclara da yaxşı qulluq göstərilir, vaxtlı-vaxtında suvarılır, budanır. Özü də bu işlərlə ayrıca briqada məşğuldur. Dağların ətəyində və yol kənarında əkilən ağaclara qulluq üçün texnika da ayrılıb.

Təqdirəlayiq haldır ki, yaşıllıqların qorunmasında sakinlər də yaxından iştirak edirlər. Niyə də etməsinlər?! Axı əkilən hər ağac yaşıllıq, təmiz hava, sağlamlıq deməkdir.

***Çingiz XALİDOĞLU,***
***Şabran rayonu***

# Nənəmin "feysbuku"

Sosial şəbəkələrin iki üzü var: biri ağdır, yəni, xeyirlidir. Digəri isə qara, yəni ki, belə olmaqdansa, olmasaydı, daha yaxşı olardı. Xeyrini hamımız bilirik: məlumatların bolluğu, istənilən adamla dünyanın istənilən nöqtəsində anındaca əlaqə qurmaq, danışmaq imkanı... Məktub yazırsan, cümlən bitməmiş artıq səni oxuyurlar.

Amma vaxt var idi ki, dünyanın bu başından o biri üzünə namə altı aya gedərdi. İmperatorlar, krallar və şahlar bir-birinə məxfi məktub göndərmək üçün çaparın başını ülgüclə daz qırxardılar, mətni də mürəkkəblə keçəl başın vərəq kimi ağ dərisinə döyərdilər, sonra bir-iki ay da gözləyərdilər ki, saç yerinə gəlsin və elçi səfərə çıxsın. Hələ bundan sonra da onun sağ-salamat gedib çatması müşkül məsələ idi. İndi isə Amerikadan məktub yazırlar, mürəkkəbi qurumamış Bakıda oxuyurlar.

Artıq dünya dəyişir, insanlar da başqalaşır. Elə dövr yetişib ki, daha heç kim sosial şəbəkələrsiz ötüşə bilmir. Fikirləşirsən ki, bəs bizim nənələrimizin, babalarımızın veberi, vatsapı, feysbuku, skaypı yox idi, onlar yaşamırdılar? Amma o da var imiş. Sən demə, qədim sivilizasiyalarda da internetsiz-filansız - ağlın gücü və beynin imkanlarından istifadə edərək bir-biri ilə danışırmışlar. Deməli, belə çıxır ki, nənəmin də "feysbuku" olubmuş.

O keçmişin feysbukuna səfər edərkən bu günümüzdən, yəni, internet resurslarındakı müasir ünsiyyət alətlərinin nə dərəcədə əxlaqımız, mədəniyyətimiz və milli-mənəvi dəyərlərimizlə ziddiyyət təşkil etməsindən danışmaq, kəlmə kəsmək lazımdır. Paytaxt həyatından sadə bir nümunə gətirək. Səhər tezdən Mətbuat prospektindən metronun "Elmlər Akademiyası" stansiyasına tərəf düşsəniz, girişdə qəribə bir səhnənin şahidi olacaqsınız. Metrodan çıxan tələbələr çay kimi iki qola ayrılaraq Politexnik və Bakı Dövlət universitetlərinə tərəf axıb gedirlər. Əgər onların başı üstündən bir drona videokamera bağlayıb buraxsanız, nadir və ağlınıza batmayan mənzərə görüb heyrətlənəcəksiniz. Hamının əlində smartfon var və heç kim nə ayağının altına baxır, nə də gözünü mobil qurğudan çəkir. Bu, daha çox qızlara aiddir. Təsəvvür ediləsi mümkün olmayan ağrılı bir mənzərədir. Elə bil əllərindəki smartfon getdikləri ünvanı və istiqaməti təyin etmək üçündür. Sanki müharibədə, döyüş bölgəsində minaaxtaranlardır və onlara nə əl-ayaq, nə də göz lazımdır. Hər şeyi dirsəkdən bükülüb bir qədər irəli uzanan əllərindəki smartfonlar təyin edir. Üzlərinə baxanda görünəni odur ki, artıq beyinlərinin bir qismi də yerindən qopub gedib smartfonun yaddaşına. Metrodan universitetə sarı uzanan bu sonsuz axın, bu insan seli Hollivudun fantastik filmlərindəki ifadəsiz, iradəsiz və şər qüvvənin itaəti altında məqsədsiz, amma hansısa bəlli istiqamətə yönləndirilən dirilmiş cansızları xatırladır.

Ayaqlar yolu əzbər tanıyır, səkiyə harada qalxmaq, harada düşmək və yolu keçmək lazımdırsa, gözlərini smartfondan çəkmədən hiss edirlər. Elə bil ki, bunları "Fecebook"un sahibi Mark Elliot Zukerberq şəxsən özü metrodan universitetə qədər proqramlaşdırıb. Sanki həyat eşqi, yeni ideyalara, biliklərə can atmalı olan tələbələr deyillər, daha çox qurulub səkiyə buraxılan robotlardır. Hamı "ciddi iş"lə məşğuldur, hamı kiməsə yazır, kiminsə yazdığını oxuyur. Yuxudan oyanıb bir tikə çörək kəsib bu dünyadan qoparaq "feysbuka" yıxılıblar. Nə başlarının üstündə səma var, nə də ayaqlarının altında torpaq. Bu dünyanın qeydiyyatından çıxıb internet fəzalarında mayallaq aşırlar. Onlar üçün artıq bu dünya yoxdur, o birisinə də gedib çatmayıblar, hələ yoldadırlar. Kimin əlində mobil "qaloş" varsa, ayrıla bilmirsə, aramsız mesajlaşırsa, hamının üzünə eyni şablon ifadələrdən yamaq çəkilib. Mesaj yazdımı, göndərdimi, sanki BMT-nin tribunasından çıxış edib, əzəmətlidir, özündən razıdır, sanki alçaq dağları yaradıb. Mesaj gəldimi, oxudumu, anındaca üzün ifadəsi dəyişir, sanki Nobel mükafatını alıblar, sanki xəzinə tapıblar. Dodaq qaçır, diş ağarır, gözlər bərq vurub parıldayır, ruh bədəndə qol açıb qaytağı oynayır. Əslində, belə mənzərə ilə yalnız metrodan universitetə gedən yolla yox, metroda, avtobusda, toyda da rastlaşmaq mümkündür, yəni, artıq bu, adi haldır. Amma belələrinin mesajlarda hansı "dəniz"lərə baş vurduqları bəlli deyil. Görünəni odur ki, "mobil qaloş" aludəçiləri sanki həyatlarının mənasını tapıb, ritmini də tutublar.

Tanış universitet müəlliminə zəng vurub gördüklərimi danışıram və soruşuram ki, tələbələr mühazirələrdə neynəyirlər? Cavab verir ki, elə səkidə gördüyün kimidir, başqa işləri yoxdur. Nəqliyyatda da belədir, evdə də, valideyinlərindən çox, "qaloşla" otub-dururlar. Yatanda ayrılmırlar, telefon balışın ayağında səfərə hazır gəmi kimi lövbər salıb dayanıb. İndi uşağa hədiyyə alanda da elə fikirləşirlər ki, yaxşı bir "qaloş" almaq lazımdır. İki baş barmaq dəli bir eşqlə smartfonun klaviaturasına elə çırpılır ki, heç sovet kəşfiyyatçıları İkinci Dünya müharibəsində morze əlifbasını belə sürətlə tıqqıldada bilməzdilər.

Qonşumla dərdləşirik. Deyir ki, indiki cavanların zayı çıxıb. Yadıma düşür ki, atam da bizə belə deyərdi və bu, xətrimizə dəyərdi. Axı, biz böyüyün yanında yersiz hərəkət etməz, artıq-əskik danışmazdıq. Utanardıq, abır-həya edərdik. Qonşum isə ürəyini boşaldır. Deyir ki, bazar günü bacı-qardaşlarının uşaqları qonaq gəlmişdilər: "Yaşlıyam deyə yanlarında oturmadım, mətbəxə keçdim ki, rahat deyib-gülsünlər. Amma otaqdan səs-səmir gəlmirdi. Mat qaldım ki, bu nə məsələdir. Axı, biz bir yerə yığışanda hay-küyümüz aləmi basardı. Qəfildən içəridə şaqqanaq qopdu, bir ağız gülüşüb yenə kiridilər. Bu minvalla 3-4 dəqiqədən bir neçə dəfə gülüşüb susdular. Nəhayət, dözmədim, girdim otağa. Nə görsəm yaxşıdı? Hərəsinin əlində bir mobil qaloş, başlarını aşağı salıb oturublar. Biri qəfildən telefonda nəsə tapıb o birilərinə göstərən kimi şaqqanaq qopur, sonra yenə ortaya sükut çökür".




Biz doğrudan da belə deyildik. İnternetimiz çöl, çəmən idi. Xalaoğlu, bibioğlu, əmi və dayıoğluların sayı 50-ni vurub keçsə də, gedib-gələrdik, doymazdıq bir-birimizdən, yorulmazdıq da. Kohnə kombaynların dəmir çarxlarından simtəkər düzəldərdik. Çiling-ağac, gizlənpaç oynayardıq. Bu, bizim "feysbuk"umuz idi. Atalarımızın da "feysbuk"u dəryaz, balta, kətmən idi. Məgər 50-100 il əvvəl sosial şəbəkələr yox idi deyə, insanlar yaşaya bilmirdilər? Bəyəm, onların dünyası dar idi? Əksinə, indi adamlar təklənib, başlarını soxublar sosial şəbəkələrə, bütün qohum-qardaşları, əzizləri vatsapdır, feysbukdur. İndi əmi, dayı, bibi, xala oğlanlarına və başqa qohumlara sanki ehtiyac yoxdur. Sosial şəbəkələrdə gənclər gəzib dolaşdıqca təklənir, yad planetliyə çevrilirlər.

Yadıma böyük nənəm düşür, anamın nənəsi. Uzunömürlü olduğundan bizə də onu görmək nəsib olmuşdu. Uşaqlığımızda onun başına yığışardıq, yalvarardıq ki, bizə gördüklərindən danışsın. Bir dəfə də əl çəkmədik ki, necə ərə gedibsə, bizə desin. Nənəmin canının suyu elə çəkilmişdi ki, elə bil qurumuş ağac idi. Əlinin üstündə damarları gömgöy çıxmışdı. Bəzən danışmağa heyi də olmazdı. Amma bu dəfə o, qarşıdakı Şahdağın qarlı zirvələrinə baxıb ah çəkdi, bir xeyli susandan sonra danışdı: "Lap çoxdan olub. Neçə yaşım vardısa, yadımda deyil, amma xatırladığım odur ki, balaca qızlar idik, "beş daş", ya da əskilərdən uşaq düzəldib "xala-xala" oynayardıq. Qundaq bələyərdik, oxşayardıq, əzizləyərdik, layla çalardıq oyuncaqlarımıza. Bir gün gəlib dedilər ki, day bunları yığışdır, ərə gedirsən. Mən nə bilirdim ərə getmək nədir. Amma cehizim vardı. Oyuncaqlarımı onların arasında gizlətdim ki, ər evində oynadaram".

Qusardan bir dostum da xatırlayır ki, onun də nənəsi ərə köçən günü qəfildən yoxa çıxıbmış. Hər yeri axtarıb tapa bilməyiblər. Bağa keçəndə görüblər ki, ağaca çıxıb. Gilas yeyir ki, qayıdana qalıb eləməz. Sən demə, nənələrimizin "feysbuku" bu imiş.

Bugünkü ilə fərqini isə özünüz müqayisə edin.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ermənistan yeni siyasi xaosa sürüklənir

## N.Paşinyan S.Sarkisyanın komandasını hakimiyyətdən uzaqlaşdırır

Ermənistanda son hakimiyyət dəyişikliyi, siyasətdə naşı fiqurlardan sayılan Nikol Paşinyanın baş nazir vəzifəsinə gəlməsi ölkədə idarəçiliklə bağlı yeni problemlərin əsasını qoyur. Belə görünür ki, Serj Sarkisyan və komandası hakimiyyəti təhvil versələr də, yeni iqtidarın normal fəaliyyətinə hər cür əngəl yaratmağı düşünürlər. Buna əsas səbəb hələ də Serj Sarkisyanın nəzarətində olan Respublika Partiyasının parlamentdə çoxluğu əlində saxlamasıdır. Bu isə istənilən qərar və qanunun parlamentdən keçməsini və beləliklə, yeni hökumətin fəaliyyətini iflic etmək üçün yetərlidir.

Bunu yaxşı bilən Nikol Paşinyan ilk olaraq parlamentdə 31 deputat mandatına malik "Çiçəklənən Ermənistan" Partiyası ilə yaxınlaşmağı düşünür. Amma "Jamanak" qəzeti yazır ki, "Çiçəklənən Ermənistan" Partiyası yaranmış vəziyyətdən maksimal dərəcədə öz lehinə istifadə etmək, hakimiyyətdə bir neçə nazir postunu ələ keçirmək niyyətindədir.

Qəzet qeyd olunan xüsusda bildirir: "Çiçəklənən Ermənistan" Partiyasının lideri Hagik Tsarukyan partiyasının üzvləri ilə görüşüb. O, görüşdə partiyadaşlarının diqqətinə çatdırıb ki, yeni hökumətdə yalnız yüksək və strateji postlarda təmsil olunmaq imkanı veriləcəyi halda iştirak edəcəklər. Tsarukyan bunu yeni baş nazir Nikol Paşinyana da çatdırıb. Lakin onun Paşinyandan hansı postları istədiyi məlum deyil. Amma dəqiq olan budur ki, Paşinyan hələ Serj Sarkisyanı yola salmamışdan əvvəl Tsarukyana hökumətdə təmsil edilmək vədini verib".

Qeyd edək ki, bir müddət əvvəl Ermənistan KİV-i Nikol Paşinyanın əsas müttəfiqi Hagik Tsarukyanın partiyasının hökumətdə yer almayacağını bildirmişdir. Mənbələr bunu keçmiş baş nazir Serj Sarkisyana qarşı olan müttəfiqlərin münasibətlərinin pozulması ilə əlaqələndirirdilər. Münasibətlərin pozulmasından sonra Paşinyan Tsarukyanla bütün əlaqələrini kəsib. Əlaqələrin qırılmasına gəlincə, bu, tərəflər arasında hökumət strukturlarının bölüşdürülməsi məsələsindəki anlaşılmazlıqla izah edilir. Amma indi Respublika Partiyasının Paşinyana qarşı müxalifətə keçməsi onu çətin vəziyyətdə qoyur. Paşinyan ya "Çiçəklənən Ermənistan" Partiyası ilə razılaşmalı, ya da Respublika Partiyasının onun hökumətinin fəaliyyətini iflic edəcəyi ilə barışmalıdır.

Ermənistanın vitse-spikeri Eduard Şarmazanov iddia edir ki, Respublika Partiyası Nikol Paşinyan hökumətinin fəaliyyətinə mane olmaq niyyətində deyil: "Biz populist addımlar atmaq və Nikol Paşinyan hökumətinin fəaliyyətini mənasız yerə sabotaj etmək niyyətində deyilik. Bizim partiya artıq müxalifətdir və yeni hökumətdə vəzifələr almaq istəmirik".

Amma Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan məsələyə fərqli prizmadan yanaşır. O bəyan edib ki, ölkə üçün hazırkı təhlükəli vəziyyətdən çıxmağın yeganə yolu növbədənkənar parlament seçkisinin keçirilməsidir. Ter-Petrosyan bu barədə "ilur.am" saytında dərc etdirdiyi "Zəruri izahat" məqaləsində yazır: "Bu günlərdə hamı qeyri-adi situasiyaya aydınlıq gətirmək üçün baş sındırır. Parlament çoxluğu özünü müxalifət elan edib, icra hakimiyyəti isə azlığın hökuməti hesab olunur. Belə bir vəziyyət dövlət aparatının maneəsiz işləməsinə mane olur. Parlamentdə çoxluğa malik Respublika Partiyası hakimiyyətin bütün qanunvericilik təşəbbüslərini bloklaya bilər. Son bəyanatları nəzərə alınarsa, onlar bunu heç gizlətmirlər də..."

Levon Ter-Petrosyan sual edir ki, belə bir vəziyyətdə Nikol Paşinyan nə edə bilər? O qeyd edir ki, Paşinyan indiyədək bütün problemləri kütləvi etirazın köməyi ilə həll edib. Onun fikrincə, Paşinyan bundan sonra eyni taktikadan istifadə edə bilməyəcək. Vəziyyəti ağırlaşdıran budur ki, hazırkı parlamentin legitimliyini beynəlxalq icma da tanıyıb. Levon Ter-Petrosyan yazır ki, parlament seçkisinin keçirilməsinin özü də asan olmayacaq, çünki Seçki Məcəlləsinə lazımi düzəliş və əlavələr hazırkı parlamentdən keçirilməlidir.

Xatırladaq ki, hazırkı baş nazir Nikol Paşinyan Levon Ter-Petrosyanın komandasına daxil siyasi fiqurlardan hesab olunurdu. Bu mənada Paşinyan üçün əsas xilas yolu məhz Levon Ter-Petrosyana qulaq asmaqdır.

İndilikdə isə Paşinyan əsas diqqəti Sarkisyan komandasını iqtidardan uzaqlaşdırmağa yönəldib. Xatırladaq ki, baş nazir postunu tutduqdan sonra Nikol Paşinyan ölkə prezidenti Armen Sarkisyana polis rəisi Vladimir Qasparyan və Milli Təhlükəsizlik Xidmətinin direktoru Georgi Kutoyanın işdən çıxarılmasını təklif edib. Armen Sarkisyan polis rəisi Vladimir Qasparyan və Milli Təhlükəsizlik Xidmətinin direktoru Georgi Kutoyanı istefaya göndərib. Ermənistanın dövlət əmlakının idarə edilməsi üzrə dövlət komitəsinin sədri Arman Saakyan istefa verib. Ermənistanın müdafiə naziri Vigen Sarkisyan ilə bərabər, onun müavinləri və bəzi generallar da istefa veriblər.

Artıq işğalçı ölkənin yeni müdafiə nazirinin adı məlum olub. N.Paşinyan bu vəzifəyə fövqəladə hallar naziri səlahiyyətlərinin icraçısı David Tonoyanın təyin olunacağını açıqlayıb.

Ermənistanın sabiq baş bankiri, iqtisadçı Baqrat Asatryan isə qeyd edir ki, Vigen Sarkisyanın vəzifəsindən könüllü şəkildə getməsi və sözügedən sistemin digər nümayəndələrinin hərəkətləri demarş, təxribat və satqınlıqdan başqa bir şey deyil. Asatryanın sözlərinə görə, bütün bunlarla yanaşı, Ermənistanın Xarici İşlər Nazirliyi də öz növbəsində erməni xalqının maraqlarını artıq çoxdandır təmsil etmir: "Deməliyəm ki, sonuncu baş verənlər növbəti dəfə bunu təsdiq etdi. Lakin bu problem deyil. Məsuliyyətdən imtina edən qruplar olacaq. Onlar öz növbəsində hakimiyyətə başqa hədəflərlə gəlmişdilər".

İstefaların davam etməsi gözlənilir. Bununla yanaşı, Sarkisyan komandası Paşinyana qarşı yeni gedişlər etməyi də düşünür. Belə vəziyyət öz növbəsində Ermənistanda gərginliyin hələ davam edəcəyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

### Nikaraquada iğtişaşlar davam edir



Nikaraquada polislə etiraz nümayişinin iştirakçıları arasında baş vermiş növbəti toqquşmalar nəticəsində daha 3 nəfər həlak olmuşdur. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

İki gənc polisin Manaquadakı iki universitet binasına hücumu zamanı həlak olmuşdur. Daha bir 55 yaşlı kişi aldığı güllə yarasından xəstəxanada dünyasını dəyişmişdir.

Paytaxtda Daniel Orteqa hökumətinə qarşı nümayişlər davam edir.

Etirazlar aprelin 18-də hökumətin təklif etdiyi sosial sığorta sahəsində islahatlar fonunda başlamışdır. Orteqa artıq islahatı ləğv etmişdir.

İndiyədək onlarla adamın həlak olduğu bildirilir. Hüquq müdafiəçilərinin məlumatına görə, 400-dən çox adam yaralanmışdır. Etiraz aksiyalarını işıqlandıran jurnalistlərin qanunsuz saxlanması, işgəncəyə məruz qalması və yoxa çıxması halları qeydə alınmışdır. Həlak olanlar arasında iki asayiş keşikçisi var.

### Berluskoni yenidən İtaliyada seçkilərdə iştirak edə biləcək

"İrəli, İtaliya" Partiyasının lideri, İtaliyanın sabiq baş naziri Silvio Berluskoni yenidən seçkilərdə namizədliyini irəli sürə biləcək. Milanın Nəzarət məhkəməsi ona 2019-cu ilədək seçkilərdə iştirakı qadağan etmiş əvvəlki məhkəmə qərarlarını ləğv etmişdir. Bu barədə "Corriere della Sera" qəzeti xəbər verir.

2013-cü ildə İtaliyanın Ali kassasiya məhkəməsi Berluskoninin "Mediaset" şirkətinin işi üzrə hökmü təsdiqləmişdir. Eks-baş nazir maliyyə fırıldaqlarına görə dörd il müddətinə azadlıqdan məhrum edilmişdir. Eyni zamanda, ona 2019-cu ilədək seçkilərdə iştirak etmək qadağan olunmuşdur.

Əvvəlcə Silvio Berluskoninin həbs müddəti əfv haqqında qanuna müvafiq olaraq bir ilə salınmış, sonradan isə ictimai işlərlə əvəz edilmişdir.

### MAQATE-nin İran üzrə baş müfəttişi istefaya getdi



İranın nüvə potensialına nəzarətə görə cavabdehlik daşıyan Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) baş müfəttişi Tero Varyoranta istefaya getmişdir. Bu barədə təşkilatın nümayəndəsi məlumat vermişdir. İstefanın səbəbləri açıqlanmır.

Varyoranta MAQATE baş direktorunun müavini idi. O həm də nüvə təhlükəsilziyi departamentinə başçılıq edirdi. Onun əvəzinə nüvə energetikası üzrə mütəxəssis Massimo Apara təyin edilmişdir.

MAQATE-nin sabiq baş müfəttişi tanınmış mütəxəssis idi və onun istefası gözlənilməz olmuşdur.

Xatırladaq ki, bir neçə gün əvvəl ABŞ İranla imzalanmış nüvə proqramı sazişindən çıxmışdır.

### İraqda İŞİD-in 5 başçısı tutulub



İraqda İŞİD-in ən çox axtarılan başçıları tutulmuşdur. Bu barədə ABŞ Prezidenti Donald Tramp öz tvitterində yazmışdır.

Pentaqon hələ ki, bununla bağlı rəsmi bəyanat verməmişdir. Lakin İŞİD-lə mübarizə üzrə beynəlxalq koalisiyanın birgə komandanlığının nümayəndəsi polkovnik Rayan Dillon tvitterdə yazmışdır: "Bərpa" əməliyyatı çərçivəsində İraqda İŞİD-in beş əsas başçısı ələ keçmişdir. Bu, İŞİD-ə böyük zərbədir".

"New York Times" qəzeti İraq hökumətinin nümayəndələrinə istinadən ələ keçmiş terrorçuların siyahısını dərc etmişdir: Səddam Camal, Məhəmməd Qadir, İsmail Əysavi, Ömər Kərbuli, Əssam Zəvbay. Əməliyyata kəşfiyyat dəstəyini ABŞ göstərmişdir.

### Mogerini İranla sazişi qorumağa çağırdı



Avropa İttifaqı (Aİ) İranla əldə olunmuş nüvə sövdələşməsini qorumaq niyyətindədir. Bunu ümumavropa diplomatiyasının rəhbəri Federika Mogerini vəd etmişdir. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Mogerinin dediyinə görə, Aİ ölkələrinin çoxtərəfli sazişi qorumaq üçün məsuliyyəti və əlindən gələni etmək öhdəliyi var. "Biz İranın sazişdə qalması və ona riayət etməsi üçün hər şey etməliyik" - deyə diplomat vurğulamışdır. O bildirmişdir ki, təkbaşına sövdələşməni heç bir tərəf dağıda bilməz.

Bu arada analitiklər bildirirlər ki, ABŞ-ın İranla sazişdən çıxması Aİ-yə problemlər yaradacaq. Məsələn, güman ki, yeni antiiran sanksiyalarına görə Fransanın "Total" şirkəti Cənubi Fars yatağının işlənilməsindən kənarlaşdırılacaq. Bu halda onun yerini çinlilərin tutacağı gözlənilir.

# Əmlak idarəçiliyindəki yeniliklər vətəndaş məmnunluğuna hədəflənib

Fəaliyyətdə başlıca prinsip vətəndaşlara yüksək səviyyədə xidmət etməkdir. Bu məqsədlə, əmlak idarəçiliyində tətbiq edilən yeniliklər vətəndaşların məmnunluğuna hədəflənib. Bu fikri Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənov Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirdiyi növbəti vətəndaş qəbulunda səsləndirib.

ƏMDK-dən AZƏRTAC-a bildirilib ki, komitə sədri mayın 12-də vətəndaşların müraciətləri və təklifləri ilə yerindəcə tanış olmaq üçün Cəlilabad rayonu Heydər Əliyev Mərkəzində bölgə sakinlərini qəbul edib. Komitənin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Cəlilabad rayonu ilə yanaşı, Biləsuvar, Masallı, Yardımlı rayonlarından olan sakinlərin də müraciətləri dinlənilib.

Müraciətlər əsasən daşınmaz əmlakın qeydiyyatı, o cümlədən fərdi həyət evi, bələdiyyə tərəfindən müxtəlif məqsədlərlə ayrılmış torpaqlar, pay torpaqları, mənzillər, sovet dövründə kolxoz və ya sovxozlar tərəfindən verilmiş həyətyanı torpaq sahələrinin sənədləşməsi ilə əlaqədar olub. Həmçinin torpaq sahələrinin sərhədlərinin dəqiqləşdirilməsi, vaxtilə verilmiş pay torpaqları ilə bağlı faktiki və sənəd uyğunsuzluqlarının aradan qaldırılması, o cümlədən torpaqların təyinatına uyğun istifadəsi, kateqoriyasının dəyişdirilməsi prosedurları istiqamətində də müraciətlər ünvanlanıb. Bəzi müraciətlər dövlət əmlakının özəlləşdirilməsi sahəsinə də aid olub.

Komitənin fəaliyyət dairəsinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

# "Azercell"dən yeni kampaniya

"Azercell"dən planşet, limitsiz internet və üstəgəl premium aksessuar əldə etmək istəyənlər üçün yeni sərfəli kampaniyaya start verilib. Belə ki, kampaniya çərçivəsində məhz "Azercell" eksklüziv mağazalarında Lenovo markalı planşeti alan hər bir müştəri 6 ay müddətinə Limitsiz İnternet paketini cəmi 15 AZN qiymətinə əldə etmək imkanından faydalanacaq. Üstəlik, hər bir kampaniya iştirakçısına 1 ədəd "Azercell Premium" aksessuar hədiyyə təqdim olunur.

Onu da bildirək ki, kampaniya planşetlərinə "Azercell"in rəsmi tərəfdaşı və Lenovo-nun Azərbaycanda rəsmi distribütoru Inteqral şirkəti tərəfindən 1 il zəmanət təqdim olunur.

Kampaniyada yalnız "Azercell" eksklüziv mağazalarında Lenovo planşetləri əldə edən abunəçilər iştirak edə bilər.

***"Azərbaycan"***

# Atəşkəs rejimi 95 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altındakı Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Qaraqaşlı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Kürdlər və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8770
Sifariş 1366